RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 77 (8670) CÜMƏ AXŞAMI, 15 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Kosmos ölkəsinin yeni nəsil savaşı



## Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərdə peyk sistemimizin böyük töhfəsi oldu

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun nümayiş etdirdiyi yeni müharibə modeli, aparılan əməliyyatlar dünyanın hərbi analitikləri tərəfindən müzakirə olunmaqdadır. Mütəxəssislərin "smart müharibə" adlandırdıqları bu savaşda çox ağıllı hesablama və konkret şərait üçün unikal bir strategiya tətbiq edilib.

Bir sözlə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müasir döyüş taktikası dünya hərb praktikasında yeni müharibə formatı kimi dəyərləndirilir.

### Tam yeni döyüş taktikası

İkinci Qarabağ müharibəsi həm də Azərbaycanın qüdrətli ordusunun gücünü, potensialını, nəyə qadir olduğunu bir daha dünyaya nümayiş etdirdi. XXI əsrdə döyüş əməliyyatlarının aparılmasının yeni modeli ilə Azərbaycan göstərdi ki, keçmiş hərb təcrübəsi, hücum əməliyyatları artıq səmərəsizdir. Savaş meydanında yalnız yeni döyüş növləri üstünlüyün əldə edilməsini şərtləndirir.

Şanlı Qələbəmizlə bitən müharibə zamanı həyata keçirilən döyüş əməliyyatlarında müasir silahlardan - PUA-lardan, yüksək dəqiqliklə hədəfi məhvetmə vasitələrindən bu miqyasda istifadə olunması hazırda dünyanın aparıcı ölkələrinin ordularının baş qərargahları tərəfindən diqqətlə öyrənilir.

Bir ordunun başqa silahlı birləşmə ilə döyüşdə bu qədər yüksək dəqiqlikli silahdan istifadə etməsi nümunəsini dünya hələ görməmişdi. Hücum dronlarının istifadəsinin miqyası və intensivliyi baxımından bu, dünya tarixində ilk idi. Hərbi mütəxəssislər deyirlər ki, indiyədək nə ABŞ, nə Rusiya, nə İsrail, nə də dünyanın başqa bir ölkəsi belə miqyasda dronlardan istifadə edib. Bu cür qarşıdurmalarda PUA-lar mübahisəsiz-filansız öz üstünlüyünü sübut etdi. Azərbaycan PUA-larının hədəfi düşmənin hava hücumundan müdafiə qüvvələri, zirehli maşınları, yüksək səviyyədə qorunan hədəfləri və canlı qüvvəsi idi.

30 il müddətində işğal edilmiş torpaqlarımızda müdafiə sistemləri qurub, onlar haqqında miflər yaradan Ermənistan ordusu bu yeni döyüş taktikası qarşısında aciz qaldı. Onların "Keçilməz" adlandırdıqları müdafiə sistemləri darmadağın edildi. Döyüş texnikası, hərbi obyektləri yerlə yeksan olan erməni əsgərinin yalnız bir yolu qalırdı - silahını atmaq və Azərbaycan torpaqlarından qaçıb canını qurtarmaq...

### Orbitdəki peykimiz böyük rol oynadı

Bu savaşda bir çox məsələlər, faktlar təsdiqini tapdı. İlk növbədə, bəlli oldu ki, Azərbaycan Silahlı Qüvvələrinin dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi. Ölkələrin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 gücü sırasında qərarlaşır. Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, həm də mənəvi döyüş ruhu. Əlbəttə ki, ordumuzun texniki təchizatı da çox cəhətdən uğurumuz üçün real zəmin yaratdı.

Ali Baş Komandan İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, heç şübhəsiz Zəfərimizin qazanılmasında müstəsna rol Azərbaycan əsgərinə məxsusdur. Təbii ki, texnologiyanın bizə verdiyi imkanlar da öz rolunu oynadı. Bu sırada "Azərkosmos"un uğurlarını söyləməmək olmaz.

Artıq 10 ildir ki, kosmik klubun üzvü olan Azərbaycan bu qısa müddət ərzində kosmosa 3 peyk göndərib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə XXI əsrdə böyük inkişaf yolu keçən Azərbaycanda texnoloji inkişafın təmin edilməsi üçün irimiqyaslı layihələrin reallaşması ilə müşayiət edilən bu dövr həm də ölkəmizdə kosmik sahənin qurulması və inkişafı ilə yadda qalıb. Ölkəmiz "Azerspace-1" və "Azerspace-2" telekommunikasiya, "Azersky" optik müşahidə peykləri ilə kosmik ölkələr sırasında özünəməxsus yerini tutub.

Həm Vətən müharibəsi dövründə, həm də postpandemiya dövründə peyklərimizin, xüsusilə "Azersky" məsafədən müşahidə peykimizin imkanları bizə böyük üstünlüklər qazandırıb. Müharibənin getdiyi bir dövrdə günlük, bəzən saatlar əsasında "Azersky"dan əldə olunan təsvirlər operativ olaraq ordumuz üçün lazımi informasiyanın ötürülməsində xüsusi rol oynayıb. Məhz bu informasiyalar əsasında düşmənin hərbi obyektləri, zirehli texnikaları, hərbi anbarları darmadağın edilib.

Ümumiyyətlə, 2014-cü ildə orbitə çıxarılan "Azersky" müşahidə peyki dünyanın istənilən nöqtəsində baş verən hadisələri müntəzəm izləməyə imkan yaradır. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azersky"ın xüsusi rolu var.

Ardı 5-ci səh.

Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana işgüzar səfəri

# Azərbaycanla Belarusun bir-birinə yüksək səviyyədə etimadı var



Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkonu qarşıladı.

Prezidentlər birgə foto çəkdirdilər.
Dövlət başçıları görüşdə çıxış etdilər.
**Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli Aleksandr Qriqoryeviç, Sizi yenidən görməyimə şadam. Dünən bizim qeyri-rəsmi formatda ünsiyyət saxlamaq, ikitərəfli gündəliyə aid məsələlərin geniş spektrini, regional problemləri müzakirə etmək imkanımız oldu. Bu gün dialoqumuzu davam etdiririk. Ölkələrimiz arasında münasibətlərin inkişafına görə çox şadam. Sizinlə biz əlaqələrimizə elə dinamizm gətirmişik ki, bütün istiqamətlər üzrə inkişaf olduğunu, razılaşdırdığımız məsələlərin praktiki həllini görürük.

Ardı 2-ci səh.

# Mənəviyyat zirvəsi, şəxsiyyət ucalığı



*"Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub.*

*Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.*

*Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi.*

Ardı 6-cı səh.

# Milli maraqları layiqincə təmin edən informasiya strategiyası

### İlham Əliyevin bu sahədə müəyyən etdiyi yeni baxış əsl həqiqətləri beynəlxalq auditoriyaya uğurla çatdırır

Dağlıq Qarabağ münaqişəsi artıq başa çatıb. 30 ilə yaxın müddətdə problemin həllində vasitəçi olanların edə bilmədiklərini Azərbaycan güc yolu ilə yoluna qoydu və 44 günlük İkinci Qarabağ müharibəsi Ermənistanın məğlubiyyəti ilə başa çatdı. İndi regionda tamamilə yeni reallıqlar yaranıb. İndi qarşıda duran mühüm vəzifələrdən biri əsl həqiqətlərin, müharibədən sonra bölgədə yaranan yeni reallıqların dürüst şəkildə beynəlxalq auditoriyaya çatdırılmasıdır.

### Dünya ictimaiyyəti yeni reallıqlar barədə dolğun məlumatlandırılmalıdır

Artıq üçtərəfli Bəyanatın bir sıra bəndləri Ermənistan tərəfindən yerinə yetirilib. Sənəddə nəzərdə tutulan yeni kommunikasiyaların yaradılması istiqamətində işlər davam edir. Həmçinin Azərbaycan işğaldan azad edilmiş ərazilərdə infrastrukturların bərpasına başlayıb. Bütün bunlara rəğmən erməni lobbisinin və Ermənistanın təəssübkeşlərinin sifarişi ilə ayrı-ayrı dövlətlərdə Azərbaycanın ədaləti bərpa etməsinə qara yaxılmasına cəhdlər müşahidə edilməkdədir.

Ardı 5-ci səh.




# Şanlı Zəfərin tərənnümü

## Hərbi Qənimətlər Muzeyi əbədi qürur mənbəyimiz və erməni faşizmi üzərində qələbəmizin simvoludur

"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq".

Ali Baş Komandan İlham Əliyevin aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında bəyan etdiyi kimi, Azərbaycan min illərin o üzündə belə müzəffər xalq olmasının qürurunu yaşayacaq, erməni faşizmi üzərində həlledici qələbəsinə görə əbədiyyətə qədər fəxarətli olacaq...

Cəmi 44 gün ərzində Azərbaycanın şanlı ordusu qarşısında diz çökən Ermənistan isə xalqımıza qarşı törətdiyi əməllərinə, vəhşiliklərinə görə cəzasını alaraq, çirkin hərəkətləri ilə dünyada ifşa olunaraq rəzil, boynubükük və başıaşağı ölkə kimi yaşamağa məhkumdur...

### Eyforiya hissindən doğan iştah...

İllər idi ki, bu mənfur niyyətli düşmən Azərbaycan xalqının qanına susamış, millətimizin başına çox bəlalar açmışdı. Soydaşlarımız tarixi dədə-baba torpaqlarından qovulmuş, soyqırımlara, tükürpərdici vəhşiliklərə məruz qalmışdı. Əsir, əliyalın mülki vətəndaşlarımıza qarşı olmazın işgəncələr verən faşist xislətli erməni vandallarının iyrənc əməllərinə çox şahidlik etmiş, öz vətənimizdə qaçqına, köçkünə çevrilmiş, illərlə vətən həsrəti çəkmişdik.

Ardı 5-ci səh.

# Xalqları bir-birinə yaxınlaşdıran ünsiyyət vasitəsi

Mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu Azərbaycanın humanitar sahədəki təcrübəsi son dövrlər dünya xalqlarının marağına səbəb olub. Mədəni dəyərlərin öyrənilməsinə və onlardan istifadə edilməsinə daha çox diqqət ayrılmasının səbəbləri az deyil. Mədəniyyət xalqları daha çox yaxınlaşdırır. Hər bir xalqın mədəni dəyərlərinə hörmətlə yanaşılması mühüm məsələdir. Buna görə mədəni əlaqələrin daha da genişlənməsi xalqlar arasında ünsiyyəti vacib faktor kimi ortaya çıxarıb.

Bu baxımdan Ümumdünya Mədəniyyət Gününün hər il qeyd edilməsi heç də təsadüfi deyil. Bəlkə də məhz bu amil əsas götürülərək 1935-ci il aprelin 15-də Vaşinqtonda "Bədii, elmi müəssisə və tarixi abidələrin mühafizəsi və qorunması haqqında" imzalanmış müqavilə ilə əlaqədar Beynəlxalq Mədəniyyət Günü təsis olunub. O zamanlardan dünyanın bir çox ölkələrində 15 Aprel Ümumdünya Mədəniyyət Günü" kimi qeyd olunmaqdadır.

Ümumdünya Mədəniyyət Gününün qeyd olunması təklifini ilk dəfə 1931-ci ildə Belçikanın Bryuqqe şəhərində keçirilən konfransda rəssam Nikolay Rerix irəli sürüb. 2008-ci ilin dekabrında isə Rusiya, İtaliya, İspaniya, Arqentina, Meksika, Kuba, Latviya və Litvanın ictimai təşkilatlarının təşəbbüsü ilə 15 aprel tarixinin Ümumdünya Mədəniyyət Günü kimi təsdiqi üçün beynəlxalq hərəkat keçirilib.

Ardı 6-cı səh.

# Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana işgüzar səfəri

## Azərbaycanla Belarusun bir-birinə yüksək səviyyədə etimadı var

*Əvvəli 1-ci səh.*

Qarşılıqlı səfərlərimiz müntəzəm xarakter daşıyır. Mən Belarusa səfərlərimi, Sizin Azərbaycana səfərlərinizi yaddaşımda təzələmişəm. Bütün bunlar ölkələrimiz arasında sıx qarşılıqlı siyasi əlaqə, yüksək səviyyədə etimad olduğunu və nəticəyə hədəflənməyimizi göstərir. Odur ki, qarşılıqlı iqtisadi fəaliyyət çərçivəsində yaxşı nəticələr görürük. Keçən il pandemiyaya baxmayaraq, bizim əmtəə dövriyyəmiz artıb, Azərbaycandan Belarusa ixrac da artıb. Ona görə bu gün sənaye kooperasiyası ilə bağlı məsələləri də daha ətraflı müzakirə edəcəyik. Sizinlə birgə qərarımıza əsasən artıq çoxdandır ki, Gəncədəki sənaye müəssisəsi fəaliyyət göstərir.

Qarabağın bərpası ilə bağlı məsələləri də Sizinlə müzakirə etmək istərdim. Belarus şirkətlərinin öz ölkənizdə aqrosənaye kompleksləri yaradılması təcrübəsi bizə məlumdur. Buna görə də işğaldan azad edilmiş ərazilərin bərpası baxımından bu mövzu, əlbəttə, xüsusi yer tutur.

Sevindirici haldır ki, biz iştirak etdiyimiz beynəlxalq strukturlarda bundan sonra da bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Yəni bizim münasibətlərimiz hər hansı problemlərdən tamamilə uzaqdır. Bizim müntəzəm əlaqələrimiz, sadəcə, görülmüş işlərə yekun vurmağa, növbəti addımları ölçüb-biçməyə və iki dost, iki tərəfdaş kimi irəliləməyə imkan verir. Bir daha xoş gəlmisiniz, Sizi yenidən Bakıda görməyimə şadam.





❖ ❖ ❖

**Prezident Aleksandr LUKAŞENKO** dedi:

- Sağ olun İlham Heydər oğlu. Bütün bu pandemiya və sair ilə bağlı hadisələr fonunda bizim görüşümüz ola bilsin müəyyən dərəcədə refren kimi səslənəcək. Lakin həqiqi dostlar vaxtında həyata keçirilməli olacaq tədbirləri ləngitmirlər. Biz də belə edirik və heç bir pandemiya buna mane ola bilməz.

Siz çox düzgün dediniz ki, bizim siyasət, iqtisadiyyat sahələrində konkret istiqamətlər baxımından münasibətlərimiz olduqca çoxşaxəlidir, çox düzgündür və onlara heç nə xələl gətirmir. Biz heç kəsə mane olmuruq və heç kəs də bizə mane ola bilməz. Ona görə ki, əgər sən bir işi görmək istəyirsənsə, buna mane olmaq çətindir.

Həqiqətən, Azərbaycan öz milli arzusuna çatmaq yolunda böyük addım atıb. Lakin bu yalnız ilk addımdır. Dünən biz bu barədə xeyli danışdıq. Mən çox şadam, Siz Belarus xalqının həqiqi dostu kimi bilirsiniz ki, qarşıda hələ çox işlər var, işğaldan azad edilmiş ərazilərdə həyatın bərpası üçün çox ağır işlər, dinc işlər görülməlidir. Bilməlisiniz ki, Belarusda Sizin etibarlı dostlarınız var. Siz bizim imkanlarımızı bilirsiniz. Bu gün biz onları nazirlər və mütəxəssislərlə bir daha müzakirə edəcəyik. Əgər biz razılığa gəlsək, - bizdə həmişə belə olub, - biz razılaşmaları həmişə reallaşdırırıq və bu gün əmtəə dövriyyəsinin yarım milyarda çatması buna sübutdur. Ümumiyyətlə, Siz Prezident vəzifəsinə gələnə qədər belə hallar olmayıb. Ona görə də bu, dinamika baxımından yaxşı nəticədir.

Siyasi münasibətlərimizə gəldikdə isə, bizə nəyinsə çatışmadığını və ya hansısa mənfi amil olduğunu demək çətindir. Bizdə belə amillər yoxdur. Bizim münasibətlərimiz əladır və mən buna görə həmişə fəxr edirəm. Biz hələ Sovet İttifaqı dövründən bütün istiqamətlər üzrə ən səmimi münasibətləri bərpa etmişik. Xüsusən çətin vaxtlarda, elə indi də Belarus üçün karbohidrogen xammalı tədarükündə göstərdiyiniz dəstəyə görə Sizə minnətdaram. Bu gün səhər fikirləşirəm, bəlkə biz münasibətlərimizi məhz bu həssas sahədə dərinləşdirmək məsələsinə baxmalıyıq, ona görə ki, Belarus iqtisadi, siyasi hadisələrin mərkəzində yerləşir. Lakin bununla belə, həll edilə bilməyən məsələlər yoxdur. Sağ olun ki, indicə dediyim kimi, Azərbaycan üçün çox gərgin bir dövrdə bu məsələləri müzakirə etmək üçün vaxt tapmısınız.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

## Azərbaycan-Belarus sənədləri imzalanıb

Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında baytarlıq sahəsində anlaşma və əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov və Belarusun kənd təsərrüfatı və ərzaq naziri İvan Krupko imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Belarus Respublikasının "Milli Turizm Agentliyi" Dövlət qurumu arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Belarusun xarici işlər naziri Vladimir Makey imzaladılar.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Belarus Respublikasının Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq məsələlərinə dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Belarusun xarici işlər naziri Vladimir Makey imzaladılar.



## İşğaldan azad olunmuş ərazilərin bərpası istiqamətləri müzakirə olundu

### Prezident İlham Əliyevin bəyanatı

Aprelin 14-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.

- Hörmətli **Aleksandr Qriqoryeviç.**

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Aleksandr Qriqoryeviç, Sizi Azərbaycanda bir daha səmimi qəlbdən salamlayıram. Sizin səfəriniz ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etməsi üçün çox böyük əhəmiyyətə malikdir. Səfər dünən başlanıb. Dünən biz ətraflı söhbət apardıq, ikitərəfli gündəliyə aid praktiki olaraq bütün məsələləri, habelə regional problemləri müzakirə etdik. Mən Dağlıq Qarabağ münaqişəsi həll edildən sonra yaranmış vəziyyət barədə Aleksandr Qriqoryeviçi məlumatlandırdım. Müzakirə etdiyimiz bütün məsələlər barədə tam qarşılıqlı anlaşma var.

Bu gün danışıqlar davam etdi. Biz xarici işlər nazirlərinin, habelə nümayəndə heyətlərinin üzvlərinin iştirakı ilə geniş tərkibdə ətraflı söhbət apardıq. Bizim münasibətlərimiz artıq zamanın sınağından çıxıb. Bu münasibətlərin çox yaxşı tarixi var. Biz qarşılıqlı əlaqələrimizin bütün dövründə həmişə münasibətlərimizin inkişafı ilə bağlı məsələləri həll etmişik. Bizim aramızda heç vaxt həll edilməmiş və ya hansısa operativ müdaxilə tələb edən məsələlər olmayıb. Biz hədəflərimizi çox dəqiq müəyyən etmişik, icraçılara konkret tapşırıqlar vermişik və qarşıya qoyulmuş məsələlərin reallaşdırılmasına nəzarət etmişik. Bundan ötrü müntəzəm görüşlər keçirmişik və keçiririk. Mən dəfələrlə Belarusa, Aleksandr Qriqoryeviç isə Azərbaycana səfər edib. Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və yenə də belə olacaq. Pandemiya ilə əlaqədar bir qədər fasilə yaranıb, lakin vəziyyət imkan verən kimi biz Aleksandr Qriqoryeviçi salamlamağa çox şadıq və Azərbaycana səfər etməsi barədə dəvətimizi qəbul etdiyi üçün ona təşəkkürümü bildirmək istərdim.

Siyasi baxımdan müntəzəm surətdə həm dövlət başçıları, həm də xarici siyasət idarələrinin başçıları səviyyəsində məsləhətləşmələr aparılır. Biz fəal əməkdaşlıq edirik, beynəlxalq strukturlarda bir-birimizi dəstəkləyirik və gələcəkdə də belə edəcəyik.

Bu gün hökumətlərarası komissiyaların həmsədrləri və nümayəndə heyətlərinin üzvləri görülmüş işlər barədə məruzə etdilər. Nazirlər və nümayəndə heyətlərinin üzvləri dünən görüşüblər. Beləliklə, dünənki gün həm də münasibətlərimizin daha da möhkəmlənməsi məsələlərinə həsr edilib, əmtəə dövriyyəsinin şaxələndirilməsi və artırılması çərçivəsində gələcək əməkdaşlığın konkret istiqamətləri müəyyən edilib. Ötən il əmtəə dövriyyəsi xeyli artıb, lakin bu əsas etibarilə Belarusa xam neftin çatdırılması hesabına mümkün olub.

Bu ilin birinci rübündə xam neftin çatdırılması daha böyük həcmdə davam edib və düşünürəm ki, keçənilki həcmi əhəmiyyətli dərəcədə üstələyəcəyik. Marşrut artıq testlənib, layihə qarşılıqlı faydalıdır. Təbii ki, biz bu sahədə əməkdaşlığı genişləndirmək, məhz energetika sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərini nəzərdən keçirmək niyyətindəyik, yəni Belarusun neftayırma zavodlarına təkcə xam neft çatdırmaqla kifayətlənməyəcəyik.

Biz Qarabağda işğaldan azad olunmuş ərazilərin bərpasında bir sıra istiqamətlər üzrə - həm şəhərsalma, həm infrastrukturun yaradılması, kənd təsərrüfatının inkişafı sahələrində Belarus şirkətlərinin gələcək iştirakı ilə bağlı məsələləri ətraflı müzakirə etdik. Biz dünən də, bu gün də Belarusun aqroşəhərciklər yaradılması sahəsində təcrübəsini geniş müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə məlumat verdim ki, Qarabağ "yaşıl enerji" zonası elan edilib və birinci "ağıllı" kənd layihəsi praktiki olaraq həyata keçirilməyə hazırdır. Əlbəttə, bu sahədə Belarusun təcrübəsi nəzərə alınmaqla bu istiqamətdə işləmək çox maraqlı olardı. Mən daha sonra dedim ki, biz ərazilərin bərpası işlərinə yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Belarus da Azərbaycan üçün belə ölkədir. Qarabağın bərpası layihələrində üç dost ölkədən olan şirkətlər artıq işləyirlər. Ümidvarıq ki, dördüncü ölkə Belarus olacaq. Biz bu sahədə məsləhətləşmələri davam etdirmək üçün Azərbaycan hökumətinin üzvlərinin Belarusa səfərləri barədə artıq razılıq əldə etmişik.

Sənaye kooperasiyası bizim münasibətlərin çox böyük seqmentidir. Hökumətlərarası komissiyanın həmsədrləri layihələrin uğurla həyata keçirilməsi barədə bizə məruzə ediblər. Aleksandr Qriqoryeviç ilə biz bu layihəni Belarus traktorlarının yığılmasından başladıq, sonra başqa istehsalatlara - avtomobillər, yük maşınları, kombaynlar, avtobuslar və bizim "Yaşıl Qarabağ zonası" konsepsiyası çərçivəsində işimizə çox yarayacaq elektrobuslar istehsalını da nəzərdə tuturuq. Alternativ enerji mənbələri yaradılmasında Belarus şirkətlərinin iştirakı ilə bağlı məsələləri də müzakirə etdik. Bir sözlə, görülməsi işlər çoxdur. Mən bu gün də, dünən də qonaqlara dedim ki, erməni işğalından azad edilmiş ərazilərin sahəsi Lüksemburqdan dörd dəfə böyükdür. İşin həcmini təsəvvür edə bilərsiniz. Bu ərazidə hər şey dağıdılıb.

Bizim hazırladığımız ilk nəşrin bir nüsxəsini Aleksandr Qriqoryeviçə təqdim etdim. Həmin nəşrdə bizim azad etdiyimiz şəhərlərin işğaldan əvvəlki fotoşəkilləri və erməni işğalçılar tərəfindən həmin torpaqlarda törədilmiş vandalizmin və barbarlığın fotoşəkilləri var.

Hesab edirəm ki, münaqişədən sonrakı inkişafla bağlı vəziyyət bütövlükdə müsbət səciyyələndirilə bilər. Mən münaqişədən sonrakı vəziyyətin inkişafına bizim yanaşmalarımız və bu haqda bizim təsəvvürümüz barədə Aleksandr Qriqoryeviçi məlumatlandırdım. Şübhəsiz, Azərbaycanın mövqeyini bildirim ki, biz belə hesab edirik və reallıq da belədir ki, Dağlıq Qarabağ münaqişəsi nizamlanıb. Azərbaycan onu müstəqil surətdə nizamlayıb, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirib. Bu qətnamələr 27 il ərzində kağız üzərində qalıb və təəssüf ki, onların implementasiyası mexanizmi işə salınmayıb. Minsk qrupunun həmsədr ölkələrinin erməni tərəfinə müraciətlə işğala son qoymaq çağırışları da yerinə yetirilməyib. Həmsədrlərin status-kvonun qəbuledilməzliyi barədə bəyanatları erməni tərəfindən eşidilməyib.

Ermənistanın başına gələnlərin təqsirkarı məhz 20 il ərzində ölkəni uçuruma aparan Ermənistan rəhbərliyidir. İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun alçaldıcı məğlubiyyəti və tamamilə darmadağın edilməsi ilə başa çatıb. Bunun əsas təqsirkarları Ermənistanda bundan əvvəl hakimiyyətdə olanlardır. Biz tarixin bu səhifəsini çevirmək istəyirik, biz etimad tədbirlərinin möhkəmlənməsinə və bu gün həm Azərbaycan-Ermənistan-Rusiya baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupu çərçivəsində, həm də qonşu ölkələr - Türkiyə və İran ilə bizim məsləhətləşmələrimiz çərçivəsində müzakirə edilən nəqliyyat-logistika layihələrinə istiqamətlənmişik. Beləliklə, Zəngəzur dəhlizi reallığa çevrilir. Biz çoxtərəfli əməkdaşlığa ümid bəsləyirik.

Əlbəttə, Belarus bizim dostumuz, sınaqdan çıxmış tərəfdaşımızdır. Təbii ki, biz onun təkcə işğaldan azad edilmiş ərazilərin bərpasında fəal iştirakına yox, həm də Ermənistanın tərəfdaşı, Ermənistanla bərabər Avrasiya İqtisadi Birliyinin və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü, eləcə də Azərbaycanın yaxın dostu, dünyada nüfuzlu ölkə kimi fəal iştirakına ümid bəsləyirik. Əlbəttə, mən əminəm ki, o, gələcəkdə Ermənistan ilə Azərbaycan arasında əlaqələrin nizamlanmasında mühüm rol oynaya bilər.

*Ardı 3-cü səh.*

# İşğaldan azad olunmuş ərazilərin bərpası istiqamətləri müzakirə olundu

*Əvvəli 2-ci səh.*

Mən Aleksandr Qriqoryeviçə onu da dedim ki, Minsk şəhəri ilə bağlı bir format artıq keçmişdə qalıb. Minsk qrupu mövcuddur, lakin münaqişə nizamlanıb. Minsk qrupunun nə ilə məşğul olacağı bizə hələ məlum deyil. Biz onlardan kreativ ideyalar gözləyirik. Bizim xarici işlər naziri mənə bu gün məruzə etdi ki, Minsk qrupunun fəaliyyəti ilə bağlı mənim dünənki şərhimdən sonra həmin qrup bəyanat verib. Təbii ki, mən o bəyanatla tanış olacağam. Lakin necə deyərlər, ümidvaram ki, Minsk şəhəri ilə bağlı bütün başqa formatlar sülh yolu ilə nizamlanacaq. Biz Ermənistanla münaqişəni demək olar 30 il müddətində sülh yolu ilə nizamlamaq istədik. Danışıqlar prosesinə sadiq olmağımız da bizim niyyətlərimizə dəlalət edir. Buna görə də münaqişənin hərbi-siyasi yolla nizamlanmasında təqsirkar, əlbəttə, işğalçı ölkədir. Əgər onlar müharibədən əvvəl və hətta müharibə dövründə də bizim ərazilərimizi tərk etmək barədə mənim çağırışlarıma, israrlı tələblərimə qulaq assaydılar, müharibənin nəticələri Ermənistan üçün bu dərəcədə ağrılı olmazdı. Bütün təqsirlər onlardadır. Biz ədaləti, o cümlədən tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdik və BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik.

Beləliklə, Aleksandr Qriqoryeviç, Sizi bir daha ürəkdən salamlayıram. Sizin rəhbərliyinizlə qardaş Belarus xalqına yeni uğurlar, yeni zəfərlər diləmək istəyirəm. Siz öz ölkənizi inkişaf, tərəqqi yolu ilə inamla irəli aparır, sabitliyi təmin edirsiniz. Biz də dostlarınız kimi həmişə Sizin yanınızdayıq və həmişə Sizin yanınızda olacağıq.

Bir daha xoş gəlmisiniz və Sizə xoş əhvali-ruhiyyə arzu edirəm. Düşünürəm ki, bu gün komandalarımıza verdiyimiz impulslar bizi daha genişmiqyaslı əməkdaşlığa aparacaq. Sağ olun.

❖ ❖ ❖

Sonra Belarus Prezidenti Aleksandr Lukaşenko bəyanatla çıxış etdi.



## Prezident Aleksandr Lukaşenkonun bəyanatı

- Hörmətli İlham Heydər oğlu, Belarus xalqının ünvanına, mənim ünvanıma dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm. Həqiqətən, Prezidentlə biz dünən və bu gün münasibətlərimizi hərtərəfli təftiş etdik, həll etməli olduğumuz məsələləri nəzərdən keçirdik. Həm Azərbaycan tərəfdən, həm də Belarus tərəfdən bizim nazirlər çox yaxşı işləyiblər. Bu gün həmsədrlər görülmüş işlər barədə məruzə etdilər, nazirlər yaxşı işləyiblər. Bugünkü dialoqumuzdan sonra bu iş hələ davam edəcək.

Hörmətli İlham Heydər oğlu, bu səfər müddətində bizim dövlət nümayəndə heyətini əhatə edən ənənəvi dostluq şəraitinə görə səmimi təşəkkürümü bildirirəm. Bu dialoqun gedişində biz Belarus ilə Azərbaycan arasında münasibətlərin strateji xarakterini bir daha təsdiq etdik və qeyd etdik ki, beynəlxalq gündəlik barədə bizim aramızda praktiki olaraq heç bir fikir ayrılığı yoxdur. Dünyada vəziyyəti dəyərləndirmələrimiz tamamilə üst-üstə düşür, dünya iqtisadiyyatında böhran, pandemiya və ən başlıcası, perspektiv üçün birmənalı olmayan proqnozlar şəraitində gələcək birgə fəaliyyət barədə aydınlıq var. Biz sabah, birisi gün nələr olacağını bilmirik. Son vaxtlar bizim münasibətlərimizdə əhəmiyyətli irəliləyişlər olub. Mənim dostlumla görüşlərimizin açıq və səmimi şəraitini çox yüksək qiymətləndirirəm. Bizdə həmişə belə olub. O dedi ki, biz müntəzəm olaraq bir-birimizin dövlətlərinə səfər edirik. Mən buraya beşinci dəfədir gəlmişəm. İlham Heydər oğlu bu və ya digər məsələlərin həlli üçün beş dəfə Belarusda rəsmi səfərdə olub. Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatların tamamilə dayandırılması barədə razılaşmaları səmimi-qəlbdən alqışlayırıq. Bu mühüm siyasi qərar regionda möhkəm sülhün təməli olmalıdır.

Belarus Prezidenti Aleksandr Lukaşenko Qələbə münasibətilə dövlətimizin başçısına artıq təbriklərini çatdırdığını dedi, 30 il davam edən və onun da qeyd etdiyi kimi, bu dəhşətli faciənin bitməsinin Azərbaycan və Ermənistan xalqları üçün önəmini vurğuladı.

**Prezident Aleksandr LUKAŞENKO** dedi:

- Mənim mövqeyimi bütün dünya bilir, Azərbaycan və erməni xalqları da bilirlər. Mən həmişə həyatı əsas götürmüşəm. İlham Heydər oğlu həmişə şahid olub, hələ onun atası Heydər Əliyev ilə görüşlərdə bu barədə söhbət düşəndə mən həmişə sual edirdim: deyin, Qarabağdakı insanlar son hadisələrə, bu hərbi əməliyyatlara qədər daim zülm altında yaşadıqlarına görə xoşbəxtdirlərmi? Orada onlara yaxşıdırmı? Bir də ki, orada sovet dövründə olanların ondabir hissəsi, bəlkə də daha az hissəsi qalıb. Dözülməz həyatdır. Deməli, bu problemi necəsə həll etmək lazımdır. Mən həmişə açıq danışmışam, bəzən tənqid atəşinə məruz qalmışam, amma bu problemi necə həll etməyin lazım olması barədə öz mövqeyimi bildirmişəm. İlham Heydər oğlu tam səmimi və açıq şəkildə dedi ki, biz problemi sülh yolu ilə həll etmək istəyirdik. Mən bütün bunların şahidi və tərəfdarı olmuşam. Bu gün isə mən, həqiqətən, həm Azərbaycan xalqını, həm də Ermənistan xalqını onların tarixində bu kədərli, ən azı kədərli dövrün başa çatması münasibətilə təbrik etmək istəyirəm. Əhsən Prezidentə. O dedi ki, biz tarixin bu səhifəsini çevirmək istəyirik. Mənim mövqeyim, mənim arzum budur. Allah eləsin, bu bəla sovuşsun. Ermənistan və Azərbaycan xalqlarının qəlbində kin-küdurət izləri qalmasın. Mən əminəm ki, dostum və qardaşım erməniləri əsla sıxışdırmayacaq, onlarla hesabı çürütmək, qisas almaq fikrinə düşməyəcək. O, savadlı, mədəni insandır. Mən həmişə deyirəm ki, sovet dövründə o, bizim Sovet İttifaqının ən yaxşı ali məktəbini - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. O, postsovet məkanındakı prezidentlər arasında ən savadlı, ən mədəni insandır. Mən həmişə bu barədə də açıq danışmışam. Yəni mən həmin suala cavab vermişəm, mən hər iki xalqı təbrik etmişəm. Bu problemin həllində onun çox böyük rolunu qeyd etmək istəyirəm. Dünən İlham Heydər oğlu ilə söhbətdə dediyimiz kimi, indi onun necə hisslər keçirdiyini düz duymuşam. Düşünmək olardı ki, bəli, qələbə qazanılıb, məsələ həll edilib, vəssalam. Amma ertəsi gün yuxudan oyandım və fikirləşdim ki, bu, yalnız ilk addımdır. Sahəsi Lüksemburqdan 4 dəfə böyük və ya Livanın sahəsinə bərabər, hər halda Livandan kiçik olmayan bu ərazilərdə hələ nə qədər iş görülməlidir! Bu, daha uzunmüddətli və çox çətin epopeya olacaq. Çox istərdim ki, bu, sülh epopeyası olsun.

Azərbaycanın qarşısında bundan sonra da görüləcək çox işlərin olduğunu qeyd edən Prezident **Aleksandr LUKAŞENKO** dedi:

- Mən bunları ona görə deyirəm ki, dünən İlham Heydər oğluna da demişəm, Siz bilməlisiniz, belaruslar Prezident tərəfindən alqışlanan müəyyən mövqe tutublar, biz bundan sonra da özümüzü konstruktiv aparacağıq. Azərbaycan rəhbərliyi də bilməlidir ki, belaruslar etibarlı dostlar və etibarlı insanlardır. Bizim razılığa gəldiyimiz bütün məsələlər reallaşacaq. Mən nazirlərə kişi kimi demişəm ki, hər kəs buradan müəyyən həcmdə işlə getməlidir. Belarus naziri burada özünə iş tapmalıdır. Xüsusən ona görə ki, Prezident belaruslar üçün, onların bu son dərəcədə zəngin ölkədə işləmələri üçün qapıları geniş açıb. Bu gün mən açıq etiraf etməliyəm ki, yaxşı mənada heyrətlənmişəm ki, Azərbaycan təkcə, məsələn, Böyük Vətən müharibəsi illərində Sovet İttifaqını xilas etmiş çox böyük qaz və neft ehtiyatları demək deyil. Mən tarixdən yaxşı bilirəm. Faşistlər Bakı neftinə ona görə can atırdılar ki, bizim ordumuzu bu neftdən ayırsınlar, onda işimiz bitərdi. Lakin sən demə, Azərbaycanın dəmir filizi ehtiyatları, müxtəlif hesablamalara görə, həcmi 15 milyard dollara qədər olan böyük qızıl filizi ehtiyatları da varmış. Ona görə bu, çox zəngin, perspektivli ölkədir, onun böyük gələcəyi var.

Prezident **Aleksandr LUKAŞENKO** münaqişənin başa çatmasında Azərbaycan Prezidentinin rolunu bir daha xüsusi vurğulayaraq bildirdi:

- Allaha şükür, hər şey bitib. Sadəcə, sağ olun ki, bitirdiniz və əminəm ki, Siz tarixin bu səhifəsini çevirəcəksiniz. Azərbaycan məsələyə bu cür yanaşmaqla Azərbaycanda yaşayan ermənilərin boyunlarını əyməyə hazırlaşmır, axı onlar təkcə Qarabağda deyil, başqa yerlərdə də yaşayırlar. Azərbaycanlılardan kimlərinsə erməniləri təhqir etməsi barədə məlumatlar əsassızdır, mən belə nümunələr görməmişəm. Siz bizi haraya çağırsanız hər cür kömək göstərəcəyik. Biz öz variantlarımızı təklif edəcəyik.

Belarus Prezidenti əlaqələrimizin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rolunu xüsusi qeyd edərək, eyni zamanda onun işğaldan azad olunmuş ərazilərimizin bərpası və ölkəmizdə pandemiyaya qarşı mübarizədə fəaliyyətini yüksək qiymətləndirdi.

**Prezident Aleksandr LUKAŞENKO** dedi:

- Əlbəttə, ticari-iqtisadi sahədə əməkdaşlıq, kooperasiyanın daha yüksək mərhələsinə keçid, müştərək müəssisələr, texnologiyanın verilməsi və burada Azərbaycana lazım olan, lakin ənənəvi sovet dövründə və indi də malik olmadıqları istehsalatlar yaradılması barədə danışdıq. Buyurun, biz buraya, xüsusən işğaldan azad olunmuş və bərpa ediləcək ərazilərdə birgə müəssisələr yaratmağa hazırıq.

Bu baxımdan Belarus Prezidenti ölkəsinin Azərbaycan ilə birgə, çiyin-çiyinə və məsuliyyətlə fəaliyyət göstərməyə hazır olduğunu vurğulayaraq bildirdi:

- Pandemiya və postpandemiya şəraitində vəziyyətin təhlilinə xeyli vaxt sərf etdik. Biz sabahdan etibarən Belarus əhalisinin kütləvi peyvəndlənməsini başlayacağıq. Vaksinlər özümüzünküdür, Rusiya Federasiyasının “Sputnik V” texnologiyası əsasında yaradılıb. Biz ölkədə yarım milyon doza vaksin istehsal edəcəyik. Bu qədər vaksini özümüz istifadə edə bilməyəcəyik. Bu vaksini Azərbaycanla bölüşməyə hazırıq. Sənaye, kənd təsərrüfatı, ağac emalı, informasiya texnologiyaları, səhiyyə, turizm sahələrində kooperasiya əlaqələrinin inkişafı üçün böyük potensial var. Bizdə daha çox sayda gənclərin təhsil alması üçün nə lazımdırsa edəcəyik. Vaxt gələcək, biz Azərbaycanın təcrübəsini öyrənəcəyik. Yaxşı ali məktəblər çoxdur, lap çoxdur. Yeri gəlmişkən, bildiyimə görə, Sizin oğlunuz da Bakıda orta məktəbi bitirib və indi ali məktəbdə oxuyur.

**Prezident İlham ƏLİYEV:** Bakıda ali məktəbi bitirib, orduda xidmət edib.

**Prezident Aleksandr LUKAŞENKO:** Bunu bilirik, bu, onun başucalığıdır.

**Prezident İlham ƏLİYEV:** Bakıda oxuyub.

**Prezident Aleksandr LUKAŞENKO:** Bəli, Bakıda oxuyub, yaxşı ali məktəblər var, əgər Prezident öz uşağını Bakıdakı ali məktəbdə oxudursa, deməli, bu, dəyərli ali məktəbdir. Vaxtilə biz də bunu qeyd etmişik.

Elmi-texniki sahədə qarşılıqlı əlaqələrimizi dərinləşdirmək üçün yaxşı perspektivlər görünür. Hərbi-sənaye kompleksinə gəldikdə isə, Belarusun keçmiş müdafiə naziri, indiki səfir buradadır. O, sərhədlərdən başlamış ta bizim istehsal etdiyimiz müasir vasitələrə qədər hər şeyi bilir. O, istənilən məsələni həll edə bilər və nazirlər də eşitdilər, səfirin istənilən tələbi hərbi-sənaye kompleksi sahəsində reallaşdırılacaq, bizim bacardığımız və Azərbaycandakı dostlarımıza lazım olan bütün istiqamətlər üzrə.

İlham Heydər oğlu, pandemiyaya və başqa qorxulu məqamlara baxmayaraq, bu gün görüşməyimizə görə Sizə təşəkkür edirəm. Biz razılaşdıq ki, danışıqlarımızı davam etdirəcəyik və bizim hökumətin üzvləri televizor vasitəsilə deyil, bir-birinin yanına gəlməklə səfər mübadiləsi aparacaqlar. Sizi Belarusa dəvət etmək istəyirəm, indi növbə Sizindir. Sizi gözləyəcəyik. Xüsusən ona görə ki, dünən biz Sizin Belarusa səfərinizin əsas bəndlərini, Belarus ərazisində gedəcəyiniz ayrı-ayrı yerləri və müəssisələri nəzərdə tutduq.

İlham Heydər oğlu, bir daha vurğulamaq istəyirəm, Siz bunu bilirsiniz, istəyirəm ki, ölkə rəhbərləri, Azərbaycanın digər rəhbərləri və xalq bilsin ki, biz həmişə Sizin və ölkənizin etibarlı dostları olmuşuq və dostlar kimi qalacağıq. Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

## Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 50 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2021-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin fəaliyyətə başlamasının 50 illiyi tamam olur.

Cəmşid Naxçıvanski adına Hərbi Lisey Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi təşəbbüsü və bilavasitə rəhbərliyi ilə yaradılmışdır. Ulu Öndərin daim qayğı ilə yanaşdığı və xüsusi diqqət yetirdiyi bu tədris ocağı ötən müddət ərzində respublikamızda milli peşəkar hərbçi kadrların hazırlanması sahəsində müstəsna xidmətlər göstərmiş, cəmiyyətdə hərbi peşənin nüfuzunun yüksəlməsində və taleyini hərb sənətinə həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynamışdır. Liseyin yetirmələri müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşdırılması və möhkəmləndirilməsi işinə dəyərli töhfələr vermiş, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə həmişə ön cəbhədə yer almışlar. Onlar böyük rəşadət nümayiş etdirərək “Vətən Müharibəsi Qəhrəmanı” və “Azərbaycanın Milli Qəhrəmanı” adlarına layiq görülmüş, orden və medallarla təltif olunmuşlar. Hərbi liseyin məzunları Vətən qarşısında vəzifə borclarını bu gün də şərəflə yerinə yetirirlər. Hazırda Silahlı Qüvvələrimizdəki zabitlərin əksəriyyəti məhz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ölkədə ordu quruculuğu işində təqdirəlayiq fəaliyyətini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 50 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2021-ci il*

## Baş nazir Əli Əsədov Türkiyənin Azərbaycandakı səfiri ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 14-də ölkəmizdə fəaliyyət müddətinin başa çatması ilə əlaqədar Türkiyə Respublikasının fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edilib. Prezident İlham Əliyevin səfirin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirdiyi vurğulanıb.

Baş nazir Türkiyə səfirinə gələcək fəaliyyətində uğurlar arzulayıb.

## Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti Sankt-Peterburqda səfərdə olacaq

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti aprelin 14-də Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyanın (MDB PA) yaz sessiyasında iştirak etmək üçün Sankt-Peterburqa yola düşəcək.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinə deputatlardan Nizami Səfərov, Arzu Nağıyev, Əminə Ağazadə, Mixail Zabelin, Emin Hacıyev, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Sessiya çərçivəsində MDB PA-nın Şura, 52-ci plenar və daimi komissiyaların iclasları olacaq.

Əvvəlcə, Sankt-Peterburqun Tavriya Sarayında keçiriləcək Şura iclasında sessiyada müzakirə olunacaq məsələlərə baxılacaq, plenar iclasda isə “Pandemiya dövründə miqrasiya proseslərinin hüquqi tənzimlənməsi və MDB-nin iştirakçı dövlətlərinin parlamentlərinin bu prosesdə rolu” mövzusunda müzakirələr aparılacaq. Deputatlarımız təşkilatın daimi komissiya iclaslarında müzakirə olunacaq məsələlərə münasibətlərini bildirəcəklər. Burada Azərbaycan parlament nümayəndə heyəti “COVID-19 pandemiyası şəraitində qlobal çağırışlar və təhdidlər. Terrorçuluq və zorakı ekstremizm” mövzusunda beynəlxalq parlament konfransında da iştirak edəcək.

Sessiya çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarovanın tədbirdə iştirak edəcək nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri gözlənilir.

Səfər aprelin 16-da başa çatacaq.

## Səfər başa çatdı

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycan Respublikasına işgüzar səfəri aprelin 14-də başa çatıb.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Belarus Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Belarus Prezidenti Aleksandr Lukaşenkonu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.

## Əməkdaşlıq və inkişaf əsas prioritetimizdir

“İşğal altında olan ərazilərimiz hər zaman yerli və xarici gündəliklərimizdə əsas yer tutan məsələlərdən biri olub. Belə ki, düşmənin 30 ilə yaxın müddət ərzində davam edən özbaşınalıqları, habelə işğalla yanaşı, müxtəlif vaxtlarda həyata keçirdiyi təxribatlar barədə həqiqətlərin dünyaya çatdırılması daim bizim üçün prioritet məsələ olub.



Prezident İlham Əliyev aprelin 13-də ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda çıxışında Vətən müharibəsində Ermənistan tərəfinin Azərbaycanın mülki əhalisinə qarşı həyata keçirdiyi hücumlarına diqqət çəkərək, bununla düşmən dövlətin beynəlxalq humanitar hüququn tələbləri pozduğunu bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Sədr müavini diqqətə çatdırıb ki, Ermənistan tərəfinin müharibə dövründə mülki əhalimizin yaşadığı və cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrimizi ağır silahlardan atəşə tutması, Gəncə şəhərinə ballistik raketlərin atılması Ermənistanın əsl simasını dünyaya bir daha nümayiş etdirdi. Ballistik silahlardan mülki əhaliyə qarşı qəddarcasına istifadə edilməsi Ermənistanın təcavüzkar xislətinin bariz nümunəsidir. Bu raketlərin əsas hədəfi mülki əhalinin yaşadığı evlər idi, atışların gecə vaxtı həyata keçirilməsinin məqsədi isə mülki əhalinin evdə olarkən qətlə yetirilməsi idi: “Lakin buna baxmayaraq, şanlı Azərbaycan Ordusu tərəfindən Hadrutda ermənilər tərəfindən yaşlı olduqları üçün özləri ilə aparmadıqları qocalara normal rəftar edildi, onlar xəstəxanalarda müayinə və müalicə olundu. Sonra Azərbaycan dövləti Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətinə müraciət edərək onların öz ölkələrinə qaytarılmasını təmin edib. Ermənistan silahlı qüvvələri hətta yas mərasiminə belə hücum etməkdən çəkinməyib. Onların istifadə etdiyi “İsgəndər-M” raketi ilə bağlı məsələ isə hazırda da gündəmdədir. Azərbaycan dövləti olaraq bu gün Ermənistandan bu silahların haradan və necə əldə etdikləri barədə rəsmi cavab tələb edirik”.

Adil Əliyev bildirib ki, Ermənistan müharibədə məğlubiyyətə uğrayıb, çoxlu itkilər verib və bu gün də bu ölkədə qeyri-sabit, acınacaqlı vəziyyət hökm sürür. Ermənistan tərəfi artıq anlamalıdır ki, Azərbaycanın dəmir yumruğu hər zaman yerindədir və onların qisasçılıq niyyəti özlərinin süqutu ilə nəticələnəcək: “Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi qələbədən sonra bizim əsas amalımız sülhün dəstəklənməsi məqsədilə konstruktiv mövqeyin nümayiş etdirilməsidir. Azərbaycanlılar və ermənilər arasında münasibətlərin qurulması qarşılıqlı istəkdən və siyasətçilərin müdrikliyindən asılıdır. Eyni zamanda müharibədən sonra biz əməkdaşlığın və sülhün tərəfində olmağımızı bir daha diqqətə çatdıraraq, yalnız Ermənistanla deyil, digər ölkələrlə münasibətlərin müsbət dinamikada inkişafının zəruriliyini bildirmişik. Ermənistan tərəfi də bu əməkdaşlıqda maraqlı olduğunu nümayiş etdirməli və buna səy göstərməlidir. Lakin Ermənistan müharibədə uğradığı məğlubiyyəti həzm edə bilməyərək öz aqressiv hərəkətlərini davam etdirir”.

Milli Məclis sədrinin müavini xüsusilə vurğulayıb ki, Ermənistanın inkişaf və əməkdaşlığa nail olmaq üçün yeganə yolu həm Azərbaycana, həm də qardaş Türkiyəyə qarşı iddialardan birdəfəlik əl çəkmək, bu iki dövlətin liderliyi ilə regionda həyata keçirilən nəqliyyat, enerji və digər layihələrdə iştirak etməkdən ibarətdir.

“Azərbaycan həmişə regionda sülhü ən çox arzu edən və əmin-amanlığın daim bərqərar olmasına çalışan dövlət olub, habelə bölgədə söz sahibi olmaqla, qarşılıqlı əməkdaşlığa töhfə verib və verməkdədir”, - deyə Adil Əliyev bildirib.

# Fövqəladə halların qarşısının alınması sahəsində Türkiyə ilə Azərbaycanın müvafiq qurumları arasında qarşılıqlı əlaqələr genişlənir

Aprelin 14-də Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə diplomatik fəaliyyəti başa çatan Türkiyə Respublikasının Azərbaycandakı səfiri Erkan Özoralla görüşüb.



Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Kəmaləddin Heydərov səfir Erkan Özoralı səmimi salamlayaraq, Prezident İlham Əliyev tərəfindən Azərbaycan və Türkiyə arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif olunması münasibətilə onu təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb. Nazir fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində iki qardaş ölkənin aidiyyəti qurumları arasında qarşılıqlı əlaqələrin daim genişləndiyini vurğulayıb, bu istiqamətdə verdiyi töhfəyə görə Erkan Özorala təşəkkür edib.

Səfir Erkan Özoral səmimi görüşə görə minnətdarlığını bildirib, Azərbaycan Fövqəladə Hallar Nazirliyi ilə Türkiyənin müvafiq dövlət qurumları arasında yüksək - səviyyəli əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əmin olduğunu diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Vasitəçi rolunda çıxış edən bir ölkənin rəsmi nümayəndəsinin verdiyi şərhlərə daha məsuliyyətlə yanaşması gərəkdir

Fransanın Ermənistandakı səfirinin hər hansı bir məsələ ilə bağlı şərh bildirmədən öncə öz ölkəsinə nəzər salması, bu və ya digər məsələlərin onun ölkəsində hansı şəkildə həyata keçirildiyinə diqqət yetirməsi yaxşı olardı. Tarixboyu çoxsaylı müharibələrdən keçən və bu müharibələrlə bağlı kompozisiyaları, səfirin dili ilə desək, "tamaşaları" müxtəlif muzeylərdə sərgiləyən Fransa səfiri bizə düşməndən götürülən qənimətlərlə necə davranacağımızımı deyəcək?!

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Fransanın Ermənistandakı səfirinin Bakıda Hərbi Qənimətlər Parkının açılışı ilə bağlı şərhinə dair sualı cavablandırarkən deyib.

Leyla Abdullayeva bildirib ki, Fransa səfirlərinin Ermənistanın məğlubiyyətini "ləyaqətli məğlubiyyət" adlandırması da maraq doğurur. Bəlkə Fransa səfirinə görə, Ermənistanın 30 ilə yaxın davam edən təcavüzkar siyasəti də "ləyaqətli işğal" olub? Ləyaqətli davranan ölkə, ilk növbədə, qonşu ölkənin ərazilərinə iddia ilə çıxış edib, bu ərazilərin bir hissəsini uzun illər işğal altında saxlamaz, bir milyon insanın hüququnu kobudcasına pozmaz, mülki şəxslər də daxil olmaqla, insanları məqsədli şəkildə qətlə yetirməz. Ləyaqətli ölkə hərbi əməliyyatların dayandırılmasına razılıq verdikdən sonra digər ölkə ərazilərinə terrorçu qrupu göndərməz və mina xəritələrini gizlətməklə insan həyatına təhlükə törətməz. Görünür, Fransa səfirinin ləyaqət anlayışı fərqlidir.

Uzun illərdir ki, vasitəçi rolunda çıxış edən bir ölkənin rəsmi nümayəndəsinin verdiyi şərhlərə daha məsuliyyətlə yanaşması gərəkdir.

**Biz birlikdə güclüyük!**

# Pandemiyaya qarşı mübarizə ciddi məsuliyyət tələb edir

## Təəssüf ki, hələ də karantin qaydalarına laqeydliklə yanaşanlar var

Azərbaycan özünün iqtisadi gücünü artırdıqca, sosial təminat, o cümlədən insanların sağlamlığının müdafiəsində təxirəsalınmaz tədbirlərin həyata vəsiqə alması vətəndaş-hakimiyyət birliyinin sarsılmaz əsaslarına çevrilir.

Son illərdə ölkədə səhiyyə sahəsində həyata keçirilən islahatlar vətəndaşların sağlamlığının etibarlı qorunmasında mühüm amilə çevrilməkdədir. Paytaxt Bakıdan başlayan islahatlar regionlarda da özünün təsirini göstərdi. Bu gün respublikamızın elə bir bölgəsi yoxdur ki, orada müasir sağlamlıq və tibbi diaqnostika mərkəzləri, həmçinin modul tipli xəstəxanalar əhalinin xidmətində dayanmasın.

Bir ildən artıq müddətdir ki, dünyanı, o cümlədən ölkəmizi bürüyən COVID-19 koronavirus pandemiyasının qarşısının alınması istiqamətində həyata keçirilən qabaqlayıcı və qarşılayıcı profilaktik tədbirlər, eləcə də stasionar və ambulator müalicələrin səmərəliliyni də bura əlavə etsək, insan amilinin Azərbaycanda əsas prioritetlərdən olduğunu söyləyə bilərik.

Artıq xeyli vaxtdır ki, ailə həkimi kimi fəaliyyət göstərən İradə Sadıqova da məhz xalqımızın sağlamlığı keşiyində dayanan ağxalatlı şəfaverənlərin əməyinin əvəzsiz olduğuna, dövlətimizin isə bu sahədə üzərinə düşənləri artıqlaması ilə yerinə yetirdiyinə dair fikirlərini bizimlə bölüşdü: "Sağlamlıq yaradanın insana verdiyi ən dəyərli, əvəzi olmayan şirin nemətidir". Belə fikirlərlə böyüyən hər kəs həyatı boyu çalışır ki, sağlamlığını əldən verməsin. Bunun üçün dövlət sağlamlıq proqramları çərçivəsində mümkün olan bütün vasitələrdən istifadə edir. Konkret olaraq öz ölkəmizə gəlincə, dövlət müstəqilliyinin bərpasından sonra bu sahədə baş alıb gedən hərc-mərcliyə və xaosa məhz Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında hakimiyyətə qayıdışından sonra son qoyuldu. O çətin günlərdə respublikanın iqtisadi cəhətdən dirçəldilməsi, Ermənistanın təcavüzünə son qoyulması, nəhayət, insanların sabaha inamını bərpa etməsi kimi həyati vacib məsələlər diqqət mərkəzində saxlanıldı..."

Hazırda ölkəmizdə COVID-19 pandemiyası ilə bağlı son durumun heç də ürəkaçan olmadığını söyləyən həkim insanların daha çox məsuliyyət daşımasının vacibliyini xüsusi vurğuladı: "...Bilirsiniz, son bir ildə dünyada koronavirusla mübarizə ölkələrin səhiyyə sistemində çalışan personalı da çətin vəziyyətə salıb. Hamı səfərbər olub və pandemiyanın qarşısının alınmasına çalışır. Bu, əlbəttə, təbiidir. Epidemiyadan pandemiyaya keçən COVID-19 dünyanı çənginə alıb. Buna görə də əsas diqqət ona qalib gəlməyə yönəldilib. Şükürlər olsun ki, artıq peyvənd üçün vaksinlər əlçatandır, baxmayaraq ki, dünyada bu sahədə də ədalətsizlik hökm sürür. Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə bu barədə videoformatlı beynəlxalq konfranslardakı çıxışlarını eşitmişik. Dövlət başçısının belə humanist çıxışları dünya xalqları tərəfindən birmənalı şəkildə alqışlanır. Bu da Azərbaycan Prezidentinin humanst xarakterli olmasının bariz nümunəsidir. Xalqlara, eləcə də vaksini almağa imkanı olmayan dövlətlərə qarşı ədalətsiz mövqeyi nümayiş etdirənlərə kəskin etiraz məhz bizim dövlət tərəfindən göstərildi. Bu, bəşəriyyətin sağlamlığına qarşı laqeydliyə son qoymaq istəyidir. Azərbaycanın dövlət başçısı peyvəndlərin paylanmasında ədalətli olmağa çağırış etdi. BMT-nin İnsan Hüquqları Şurasında "Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi" adlı qətnamə qəbul edilib".

Cənab Prezident çıxışlarının birində qeyd etdi ki, Azərbaycan həmçinin COVAX təşəbbüsünə qoşulan və onu dəstəkləyən ilk ölkələrdən biri olub: "Biz və bütün beynəlxalq ictimaiyyət bu təşəbbüsün pandemiya ilə mübarizədə əməkdaşlıq və həmrəylik modeli olmasını gözləyir. Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq... Mən BMT Baş Assambleyasının xüsusi sessiyasında bu məsələni qaldırmışam və bu gün Qoşulmama Hərəkatı çərçivəsində bu məsələ barədə fəal diskussiya aparırıq. Bir çox ölkələr mənim təşəbbüsümü dəstəkləyiblər. Hazırda əlavə məsləhətləşmələr aparılır və biz əməli işə keçməliyik. Şablon bəyanatlar səsləndirmək kifayətdir, onların arxasında heç bir iş dayanmır. Bunlar artıq hamını bezdirib. Bu məsələ hər bir insana aiddir. Biz bu məsələdə həm milli mənada, həm də bu gün üzvlərinin sayına görə dünyada BMT-dən sonra ikinci beynəlxalq qurumda sədrlik edən ölkə kimi prinsipiallıq göstəririk".

Həkimin qeyd etdiyi kimi, ölkəmizdə vaksinasiyanın yeni mərhələsi də uğurla davam etdirilir. Doğrudur, son həftə koronavirusa yoluxmaların və ölüm hallarının artması müşahidə olunmaqdadır və bu, narahatlıq doğurmaya bilməz. Beynəlxalq KİV-dən alınan məlumatlardan da göründüyü kimi, bu, pandemiyanın yeni ştammı ilə əlaqəlidir. Dünyanın bir çox ölkələrində, hətta azyaşlıların da yoluxmaya məruz qalması müşahidə edilir.

Dövlət başçısının dəfələrlə qeyd etdiyi kimi, pandemiyanın lap əvvəlindən Azərbaycanda vəziyyət nəzarətdə saxlanılır. Karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması üzrə görülmüş tədbirlər kifayət qədər səmərəli olub. Pandemiyanın ilk aylarında ölkəmizdə 10-dan çox modul tipli yeni xəstəxana yaradılıb. Biz həm də Cənubi Qafqazda peyvəndləməyə başlamış birinci ölkəyik.

Lakin bütün bunların qarşılığında ölkəmizdə bəzi vətəndaşların pandemiyanın qarşısının alınmasında həyata keçirlən tədbirlərdə yaxından iştirak etməməsi, üstəlik, Nazirlər Kabineti yanında Operativ Qərargahın və TƏBİB-in tövsiyə etdiyi qaydalara qeyri-ciddi yanaşmaları, bu azmış kimi, qanunların kobud şəkildə pozulması bağışlanılmazdır. Unutmayaq ki, biz Vətən müharibəsində birlikdə qalib gəlməyi bacarmışıq! Gözəgörünməz bəladan da xilas yolu yalnız birliyimiz və həmrəyliyimizdir. Qanunun aliliyi bu sahədə də qorunmalıdır. Marşrut avtobuslarındakı sıxlıq, gizli-gizli keçirilən nişan və toy, yaxud yas mərasimləri pandemiyanın ömrünü uzatdığı üçün hər birimizin həyatına da təhlükədir. Dezinformasiyalara inanmayıb tələb olunan sağlamlıq qaydalarına əməl edək.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***




# Azərbaycanda koronavirusa 2293 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 2071 nəfər müalicə olunaraq sağalıb, 2293 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 31 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 291 min 894 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 255 min 833 nəfər müalicə olunaraq sağalıb, 4009 nəfər vəfat edib. Aktiv xəstə sayı 32052 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 54 min 472 test aparılıb. Dünənki test sayı isə 14086-dır.

# Akademik Yaqub Mahmudov Əmir Teymurun 685 illiyinə həsr olunmuş beynəlxalq konfransda məruzə edib

Özbəkistan Elmlər Akademiyasının Tarix İnstitutunun təşkilatçılığı ilə böyük sərkərdə və dövlət xadimi Əmir Teymurun anadan olmasının 685 illiyinə həsr edilmiş beynəlxalq onlayn konfrans keçirilib.



Bu barədə AZƏRTAC-a AMEA-dan məlumat verilib. Bildirilib ki, konfransı Özbəkistan Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru Azamat Ziyo açıb. Sonra konfransda əsas məruzəçi kimi Azərbaycanın görkəmli tarixçi-alimi, akademik Yaqub Mahmudov "Dünya tarixinin dahi sərkərdəsi Əmir Teymur" mövzusunda çıxış edib.

Yaqub Mahmudov deyib ki, Əmir Teymurla İldırım Bəyazid, Uzun Həsənlə Fateh Sultan Mehmet, Şah İsmayılla Sultan Səlim, Şah Təhmasiblə Sultan Süleyman qarşı-qarşıya qoyulmamalıdır. Bu qarşıdurmada Qərb diplomatiyasının mühüm rolu olub. Hazırda Qərbdə türk dünyasının tarixi şəxsiyyətləri aşağılanır, amma İsgəndər, Sezar, Napoleon kimi şəxsiyyətlər isə mədh edilir.

"Ayağını yüngülcə çəkdiyi üçün düşmənlərinin həqarətlə "Axsaq Teymur", "Topal Teymur", "Teymurləng", "Tamerlan" adlandırdığı Əmir Teymur uzaqgörən dövlət xadimi idi. İşğal etdiyi ölkələrdə elm-sənət adamlarına, sənətkarlara, tacirlərə toxunmazdı. Dünyanın ən məşhur sənətkarlarını imperiyanın paytaxtı olan Səmərqəndə göndərər və bu gün dünyanı heyran qoyan Səmərqənd abidələrinin ucaldılmasını nəzarət altında saxlayardı", - deyə akademik qeyd edib.

Y.Mahmudovun məruzəsi Özbəkistan Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru Azamat Ziyo, türkiyəli professor Ahmet Şimşirgil və digər alimlər tərəfindən böyük maraq və razılıqla qarşılanıb. Tədbirdə müştərək elmi araşdırmaların aparılmasının vacibliyi də vurğulanıb.

Xatırladaq ki, Yaqub Mahmudov 1991-ci ildə macar alimi German Vamberinin "Əmir Teymur" əsərinin Azərbaycan dilində nəşrinə "Ön söz" yazıb və orada Avropamərkəzçilik konsepsiyasını kəskin tənqid edib.

# "Yaşıl Marafon" çərçivəsində Qubadlıda ağacəkmə aksiyası keçirilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində Qubadlı rayonunda ağacəkmə aksiyası keçirilib.



İctimai Birlikdən AZƏRTAC-a bildirilib ki, aprelin 13-də rayonun Muğanlı kəndində yaşıllıqların məhv edildiyi ərazidə akasiya, çinar və tut ağacları olmaqla, ümumilikdə, 750 ağac, eləcə də toxumlar əkilib.

Qeyd edilməlidir ki, işğaldan azad edilmiş ərazilərdə keçirilən aksiyalar zərərgörmüş yaşıllıq massivlərinin bərpasına və bu ərazilərin təbiətinin canlandırılmasına töhfə vermək baxımından mühüm əhəmiyyət kəsb edir.

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən layihənin əsas məqsədi yaşıllıq sahələrini artırmaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

Ümumi ekoloji vəziyyətin yaxşılaşdırılmasında, eyni zamanda iqlim dəyişmələri ilə bağlı təsirlərin minimuma endirilməsində əvəzsiz rolu olan yaşıllıqların artırılmasına xüsusi önəm verən IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ölkəmizin digər rayonlarında da genişmiqyaslı ağacəkmə tədbirlərini davam etdirir.

Yaz və payız mövsümlərində ölkə üzrə 1 milyona yaxın ağac əkilməsini hədəfləyən layihə tərəfdaşları hər kəsi bu təşəbbüsə dəstək olmağa və təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.

# Qubadlı rayonunun Yusifbəyli kəndindəki XVlll əsrə aid məscidin sökülməsində günahkarlar cəzalandırılacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Ermənistan silahlı qüvvələrinin işğalından azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması istiqamətində genişmiqyaslı tikinti işləri həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, yol infrastrukturu layihələrindən biri olan Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun tikintisi zamanı Qubadlı rayonunun Yusifbəyli kəndində yerləşən XVIII əsrə aid məscidin söküldüyü müəyyən edilib.

Məsələ barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məruzə olunub. Dövlət başçısı tərəfindən aidiyyəti strukturlara baş vermiş hadisənin araşdırılması və günahkarların cəzalandırılması ilə bağlı tapşırıq verilib.

Məscid Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınıb. Qubadlı rayonu erməni silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra məscidin yarıuçurulmuş vəziyyətdə olduğu və heyvanların saxlanıldığı yer kimi istifadə edilərək vandalizmə məruz qaldığı müəyyən edilib.

Uzunluğu 66 kilometr təşkil edəcək Xudafərin-Qubadlı-Laçın avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilir. Artıq yolun Xudafərin su anbarı və Xanlıq yaşayış məntəqəsi arasında olan hissəsində tikinti işlərinə start verilib.

Qubadlı rayonunun Yusifbəyli kəndində tikinti işləri aparılarkən tikilinin təyinatı barədə İdarələrarası Mərkəzə və aidiyyəti dövlət orqanlarına müraciət edilməyib və dəqiqləşdirmə aparılmadan onun söküntüsü həyata keçirilib. Baş vermiş hadisə ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin və subpodraçı şirkətin yolun tikintisinə məsul olan, ciddi səhlənkarlığa yol vermiş əməkdaşları barədə cəza tədbirləri görüləcək.

Həmçinin Əlaqələndirmə Qərargahının rəhbərliyi tərəfindən müvafiq dövlət orqanlarına işğaldan azad olunmuş ərazilərdə mədəniyyət və dini abidələrə nəzarətin daha da gücləndirilməsi, bərpa və yenidənqurma işləri zamanı ərazidəki tikililərin təyinatının aidiyyəti üzrə dəqiqləşdirilməsi ilə bağlı müvafiq göstəriş verilib.

# Sarkisyanla Koçaryan da yollarını ayırır

Ermənistanda seçkiqabağı iqtidar və müxalifətin qarşılıqlı ittihamları getdikcə daha sərt xarakter alır. Xüsusilə görünən odur ki, müxalifət həm də Nikol Paşinyanı təhdid etməklə təzyiqlərini artırmağa çalışır. Bunlara cavab olaraq baş nazir rəqiblərinə qarşı inzibati metodlardan istifadəni daha da genişləndirir.

Özü də bu o vaxt baş verir ki, keçmiş hərbi xunta ilə müxalifət arasında ziddiyyətlər dərinləşir. Ermənistanda nəşr olunan "Qraparak" qəzeti də sözügedən xüsusda maraqlı məlumat yayıb. Qəzet yazır ki, Ermənistan müxalifəti əsas qüvvələri birləşdirərək seçkilərə vahid birliklə, bu da olmasa, bir neçə böyük blokla gedə biləcəyinə ümid edirdi, amma məyus oldu. Bu gün Ermənistan müxalifətinin liderləri arasında kəskin fikir ayrılıqları yaranıb. İndi bir çox müxalifətçi böyük bir birləşmənin uğursuz olmasından, hətta kiçik birləşmələrin parçalana biləcəyindən məyus olub.

Qeyd edilir ki, müxalif cəbhədə əsəblər tarıma çəkilib. Kulislərdə gedən müzakirələrdə parçalanmanın əsas günahkarları kimi Serj Sarkisyan və Robert Koçaryanın adları çəkilir. İddiaya görə, sabiq prezidentlər Nikol Paşinyanla yox, bir-biri ilə daha çox mübarizə aparırlar və əgər onlar fikir ayrılıqlarını kənara qoyub birləşə bilsəydilər, baş nazirə çətinlik yarada bilərdilər.

Qəzet yazır ki, Koçaryandan fərqli olaraq, Sarkisyan yenidən hakimiyyətə gəlməkdə maraqlı görünmür: "Sarkisyan daha çox özünün komandasının məsələlərini həll etməyə çalışır. Koçaryana gəlincə, onun bir çox əsassız ambisiyaları var, heç kimə güzəştə getmək istəmir, dominant fiqur olduğunu və bu səbəbdən də siyahını təkbaşına hazırlamağı düşünür. Buna görə də Koçaryanın ətrafında birləşməyə hazır olan bir çox siyasi qüvvə, o cümlədən daşnaklar tərəddüd etməyə başlayıblar. Onlar bu qatarda sonuncu vaqon olmaq istəmirlər. Müxalifətin belə bir parçalanması isə yalnız Nikol Paşinyanın xeyrinədir".

Belə bir vəziyyətdə Paşinyan xuntaya qarşı inzibati metodları işə salıb. Ermənistanın baş prokurorluğu S. Sarkisyanın dövlət sirlərini açması ilə bağlı ona qarşı cinayət işinin qaldırılması məqsədilə hərbi polisə müraciət edib. Baş prokurorluğun ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Arevik Xaçatryan "Azatutyun" radiosuna açıqlamasında bildirib ki, Serj Sarkisyan "Armnews" telekanalına müsahibəsində iqtidarı müharibə vaxtı ordunu qarət etməkdə günahlandırıb. Məsələn, o deyib ki, müharibə günlərində hökumət Müdafiə Nazirliyinin məlumatı olmadan zirehli jiletlər alıb. Onun dediyinə görə, jiletlərin qiyməti bazar qiymətindən dəfələrlə çox göstərilib.

Sarkisyan onu da bəyan edib ki, hökumət hər bir jiletə 600 dollar xərcləyib. Keçmiş prezident bildirib ki, onun hakimiyyətdə olduğu vaxt maliyyə mənbələri dəqiq göstərilməklə müasir silahların alınması planı təsdiqlənib. Onun sözlərinə görə, hava hücumundan müdafiə sistemləri də daxil olmaqla 2500 PUA 2024-cüilədək alınmalıymış. Döyüş dronlarından 1000 ədədi Ermənistana 2020-ci ilədək verilməliymiş, lakin Nikol Paşinyanın hökuməti bu proqramı dəyişib. İndi bu fikirlər Sarkisyana qarşı cinayətdə istifadə edilir.

Keçmiş prezidentin vəkili Amram Makinyan "Azatutyun" radiosuna deyib ki, S.Sarkisyana qarşı cinayət işləri idarə olunan prosesdir: "Mən bütün bu prosesi absurd kimi qiymətləndirirəm. Serj Sarkisyan dövlət sirləri ilə 20 illik iş təcrübəsinə malikdir. O, informasiyanın və dövlət sirrinin nə olduğunu yaxşı bilir. Mən bir ritorik sual verəcəyəm: İki ay əvvəl verilmiş müsahibə niyə onların yadına indi düşüb?"

Bu arada S.Sarkisyanın qardaşı oğlu Narek Sarkisyan yenidən həbs edilib. Xatırladaq ki, Narek Sarkisyan 2018-ci ildə İnterpolun və Çexiya polisinin əməkdaşları tərəfindən Praqadakı mənzillərdən birində saxlanıb. O, həmin ilin iyulundan axtarışa verilmişdi. Polisin verdiyi rəsmi məlumata görə, keçmiş prezidentin qardaşı oğlu Qvatemala vətəndaşı Franklin Qonzalesin adına saxta pasportla saxlanıb.

Ötən ilin iyununda Çexiya məhkəməsi Narek Sarkisyanın Ermənistana ekstradisiyasına dair Yerevanın ricasını təmin edib. Robert Koçaryana qarşı isə məhkəmədə rüşvətalma ittihamı üzrə iş davam edir. Bu, sabiq prezidentlərin güc yolu ilə sıradan çıxarılması deməkdir. Belə vəziyyət seçkilərdə Paşinyana qalib gələ bilmək üçün yeni imkanlar yaradır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Azərbaycan və Çexiya parlament dostluq qruplarının onlayn görüşü keçirilib

Aprelin 14-də Azərbaycan və Çexiya qanunvericilik orqanlarında mövcud olan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının onlayn formatda görüşü keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan parlamentinin Çexiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elnur Allahverdiyev çexiyalı deputatlara keçən ilin noyabrında Azərbaycanın zəfəri ilə başa çatan Vətən müharibəsi və bugünkü vəziyyət barədə məlumat verib. O, Ermənistanın 30 il işğalda saxladığı Azərbaycan ərazilərində törətdiyi dağıntılardan və minalanmış sahələrdən danışıb. Bildirib ki, Azərbaycan erməni işğalından azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlayıb. Məlumat verilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişlərinə əsasən, həmin ərazilərdə "yaşıl zona" konsepsiyasının həyata keçirilməsi, bərpa işlərində ən müasir texnologiyaların tətbiqi, "ağıllı" kənd və şəhərlərin salınması, köçkünlərin tezliklə öz doğma yurdlarına qaytarılması nəzərdə tutulub.

Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Fatma Yıldırım çıxışında Ermənistanın minalanmış sahələrin xəritələrini verməkdən imtina etməsini qarşı tərəfin təcavüz siyasətindən əl çəkməməsi kimi qiymətləndirib.

Çexiya-Azərbaycan parlament dostluq qrupunun rəhbəri Zdenek Ondraçek və qrupun digər üzvləri Çexiyada hazırda mövcud olan vəziyyət və payızda keçiriləsi gözlənilən parlament seçkiləri barədə danışıblar. Qarşı tərəf erməni işğalının Azərbaycana vurduğu dağıntılar və insan itkiləri ilə bağlı fikirlərini ifadə ediblər. Çexiyalı deputatlar Azərbaycanla əməkdaşlığın Çexiya üçün böyük önəm daşıdığını, bölgədə münasibətlərin normallaşmasına yönəlmiş addımları təqdir etdiklərini bildiriblər. Çexiyalı millət vəkilləri işğaldan azad edilmiş ərazilərdə həyatın yenidən canlandırılmasında və inkişafında Azərbaycana uğurlar arzulayıb, bu işdə dəstəklərini ifadə ediblər.

Görüşdə deputatlardan Ülviyyə Ağayeva, Jalə Əhmədova, Naqif Həmzəyev, Soltan Məmmədov, Elşən Musayev də iştirak ediblər.

# Qubadlı rayonunda Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb

Aprelin 14-də Qubadlı rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb.





Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, bununla əlaqədar təşkil olunmuş mərasimdə xidmət rəisinin müavini general-leytenant İlham Mehdiyev çıxış edərək yeni hərbi hissənin fəaliyyətə başlaması münasibətilə DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Çıxışda ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və dövlət sərhədlərinin işğaldan azad olunmasından sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarına uyğun olaraq bu ərazilərdə sərhəd mühafizə bölmələrinin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili məqsədilə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılmasının davam etdirilməsi qeyd olunub, işğaldan azad olunmuş müqəddəs sərhədlərimizdə xidmət etməyin hər bir Azərbaycan sərhədçisi üçün böyük şərəf və qürur mənbəyi olduğu vurğulanıb.

Yeni hərbi hissənin açılışını bildirən rəmzi lent kəsildikdən sonra tədbir iştirakçıları sərhəd komendantlığının şəxsi heyətinin xidməti-döyüş fəaliyyətinin təşkili üçün yaradılmış şəraitlə tanış olub, o cümlədən xidməti otaqlara, kazarma və yeməkxanaya, hamam-camaşırxana, anbar, silah və texniki vasitələrə, avtomobil texnikasına baxış keçiriblər.

Tədbirin sonunda xidməti fəaliyyətində fərqlənmiş hərbi qulluqçular təltif olunublar.

***"Azərbaycan"***

# Şanlı Zəfərin tərənnümü

## Hərbi Qənimətlər Muzeyi əbədi qürur mənbəyimiz və erməni faşizmi üzərində qələbəmizin simvoludur

*Əvvəli 1-ci səh.*

Nə yazıq ki, erməni faşistlərinin xalqımıza qarşı törətdikləri bu qandondurucu əməllər barədə faktlar ortaya qoyulsa da, şahidlərin dili ilə onların başlarına gətirilən haqsızlıqlar çatdırılsa da, bəzi qərəzli ölkələr tərəfindən bu mənfurların vəhşilikləri qəsdən gözardına vurulur, yaşanan dəhşətlərə qarşı susqunluq nümayiş etdirilirdi. Erməni şovinistləri isə törətdikləri əməllərə görə cəzasız qaldıqlarını görərək daha da azğınlaşır, millətimizə qarşı amansız vəhşiliklər törədirdilər. Torpaqlarımıza qarşı açıq-açığına iddia qaldıraraq, xam xəyallar dünyasında yaşayaraq, "Böyük Ermənistan" yaratmaq xülyasına düşmüşdülər. Əhalimizin məcburi şəkildə öz ata-baba torpaqlarından qovulan zaman qoyub gəldikləri mülki maşınlarla öyünməyi, bunu dünyaya hərbi güc sayəsində əldə etdikləri qənimət kimi təqdim etməyi də unutmurdular. Yaratdıqları saxta miflərə, quramalara, uydurduqları yalanlara özləri də inanırdılar...

Elə bu eyforiya hissindən doğan iştahla da sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı növbəti hərbi təxribata əl atdı və yenidən birbaşa mülki əhalini hədəf seçdi.



### Qisas günü yetişdi

Onların bu namərd əməlləri xalqımızın səbrini daşıran son damla oldu. Artıq qisas günü yetişmiş, Yer üzündə erməni faşizminə son qoymağın məqamı gəlmişdi. Daha azğın düşmənə bundan sonra aman yox idi...

Buna görə idi ki, Qarabağ uğrunda milyonlar dəmir bir yumruğa çevrildi. Şanlı Azərbaycan Ordusu vətən uğrunda ölüm-dirim savaşına başladı və çox keçmədən ardıcıl parlaq zəfərlərə imza atdı, hər gün xalqımıza qələbə müjdələri verdi. Vətənpərvər oğullarımız öz şücaətləri ilə hərəsi bir qəhrəmanlıq dastanı yazdı. Ana yurd uğrunda öz canlarını qurban verməkdən belə çəkinmədən şəhid, qazi oldular, amma yenə də düşmənə aman vermədilər, mənfurun nəfəsini boğdular. Bayrağımızı illərlə həsrətini çəkdiyimiz Qarabağın hər şəhərində, qəsəbəsində, kəndində, zirvəsində qürurla dalğalandırdılar.

Ali Baş Komandanın qətiyyəti, əzmkar oğullarımızın polad iradəsi sayəsində cəmi 44 gün ərzində haqq savaşımız zəfər çaldı, düşmən qarşımızda diz çökdü...

Ötən ilin 10 dekabrında isə Azərbaycan xalqı möhtəşəm Zəfər paradında cəsur oğullarını qürur hissi ilə seyr etdi, igidlərimizin darmadağın etdiyi düşmən texnikalarının tamaşasına durdu. Azərbaycanın gücünün qarşısında heç bir qüvvənin, silahın, sursatın dayana bilməyəcəyini görüb bir daha qürrələndi...

### Ermənistanın işğalçı təfəkkürünü faktlarla sübut edən tarixi ünvan

Azərbaycanın qürurverici qələbəsinin, düşmənin isə acı məğlubiyyətinin daha bir təntənəli nümayişi isə Hərbi Qənimətlər Parkında sərgilənir, haqq yolunda qazandığımız zəfəri bütün dünyaya göstərir.

Bu park Ermənistan ordusunun necə tar-mar edildiyini, hərbi texnikalarının necə yararsız hala salındığını, "dəmir yumruq" sayəsində cəmi 44 gün ərzində Ermənistanın necə diz çökdürüldüyünü ən incə detallarına qədər göstərən qürur yerimizdir. Azərbaycan torpaqlarına göz dikən Ermənistanın işğalçı təfəkkürünü, erməni faşizmini faktlarla sübut edən tarixi ünvanımızdır.

Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun qazandığı tarixi zəfərin nümayiş etdirilməsi üçün Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Hərbi Qənimətlər Parkında 300-dən çox eksponat sərgilənir.

Burada düşmənin hərbi texnikaları, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqları, məğlubiyyətə uğradılan düşmən ordusunun hərbçiləri, Vətən müharibəsinin gedişatı barədə məlumatlar sərgilənib. Bütün bu eksponatlar Azərbaycana zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

Parkda sərgilənən Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya isə xüsusi məna kəsb edir. Həmin lövhənin qarşısında dayanan Prezident İlham Əliyev söylədi ki, Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb: "Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya Ermənistanın məğlubedilməz ordusu var".

Prezident qətiyyətlə vurğuladı ki, biz bunu unutmamışıq və burada nümayiş olunan lövhə erməni fərariliyinin təzahürüdür: "Çünki bu nömrələr hərbi yük maşınlarının nömrələridir".

### Azərbaycan xalqının qürur yeri

Parkı ziyarət edən hər kəs Azərbaycanın parlaq qələbəsinə uzanan yolda müzəffər ordumuzun şücaətinə şahidlik edəcək, qəhrəman oğullarımızla qürur duyacaq, ana torpaq uğrunda canlarını qurban verərək müqəddəs şəhidlik məqamına ucalan vətən fədailərimizin ruhunu ehtiramla yad edəcək.

Hərbi Qənimətlər Parkı Azərbaycanın parlaq qələbəsinin təzahürü, eyni zamanda Ermənistanın faşist xislətini olduğu kimi, real faktlarla ortaya qoyan məkandır. Açıq səma altında yaradılan bu unikal yer yalnız bu gün üçün deyil, gələcək zaman, tarix üçün də çox dəyərlidir. Çünki burada nümayiş olunan real faktlar min illər boyu təkcə Azərbaycan xalqının deyil, insanlığın erməni faşizmindən qorumasına xidmət göstərəcək.

Bəli, Hərbi Qənimətlər Parkı Azərbaycan xalqının qələbə, qəhrəmanlıq rəmzi olaraq əbədiyyətə qədər tarixdə öz layiqli yerini tutacaq. Zaman axınına qoşularaq daim Azərbaycanın qüdrətini, Ermənistanın məğlubiyyətini bütün dünyaya hayqıracaq...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Milli maraqları layiqincə təmin edən informasiya strategiyası

## İlham Əliyevin bu sahədə müəyyən etdiyi yeni baxış əsl həqiqətləri beynəlxalq auditoriyaya uğurla çatdırır

*Əvvəli 1-ci səh.*

Ermənistanın özündə isə revanş hissi ilə yaşayanlar üçtərəfli razılaşmalara qarşı çıxırlar. Tarixi təcrübə göstərir ki, bütün qanlı müharibələr yekunda sülhlə başa çatıb. Amma Qarabağda məğlub edilən, işğal siyasətinə son qoyulan Ermənistanda kimsə Azərbaycanla sülh barədə danışsa, linç edilə bilər.

Buna görə dayanmaq olmaz və dünya ictimaiyyəti regiondakı yeni reallıqlar və həqiqətlər barədə dolğun məlumatlandırılmalıdır. Bu baxımdan Prezident İlham Əliyev bu missiyanı siyasi uzaqgörənliklə həyata keçirir. Dövlət başçısı hərbi əməliyyatların başa çatmasından ötən dövrdə keçirdiyi görüşlərində, çıxışlarında Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra regionun gələcəyi barədə ətraflı bəhs edib.

Aprelin 13-də ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfrans da bu baxımdan mühüm əhəmiyyət kəsb etdi. Dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələrinin iştirak etdiyi konfransın iştirakçılarının suallarını cavablayan İlham Əliyev bir daha əsl həqiqətləri onların diqqətinə çatdırdı, regionu gözləyən yeni çağırışların nələrdən ibarət olduğunu açıqladı.

### Ermənistan Azərbaycan torpaqlarını azad etmək fikrində olmayıb

Məlumdur ki, hələ Birinci Qarabağ müharibəsindən bəri beynəlxalq təşkilatlar problemin yalnız sülh yolu ilə həlli variantını nəzərdən keçirirdilər. Azərbaycan ilk gündən bu prosesə sadiq olub və konstruktiv mövqe nümayiş etdirib. Beynəlxalq hüququn Azərbaycanın tərəfində olmasına, BMT-nin müvafiq qətnamələrinin qəbuluna baxmayaraq, təəssüf ki, danışıqlar prosesində respublikamızın ədalətli mövqeyi təmin edilməyib.

Sülh prosesi isə 30 ilə yaxın davam edə bilməzdi və Ermənistanın danışıqlarda imitasiya etdiyi illər öncədən məlum idi. ATƏT-in Minsk qrupunun sabiq həmsədri, beynəlxalq ekspert Metyu Brayzenin sualını cavablandırarkən öncə bu barədə fikrini bildirən Prezident İlham Əliyev dedi ki, Ermənistanın danışıqlar prosesindəki taktikası torpaqlarımızı əbədi işğal altında saxlamaqdan ibarət olub: "Danışıqlar zamanı məndə güclü bir hiss var idi və mən bunu sizlərə deyirdim ki, Ermənistan münaqişənin həllini istəmir və bunun üçün əlindən gələni edir. Biz torpaqları azad edəndən sonra orada 100 milyonlarla dollar hesabına başa gəlmiş nəhəng istehkamlar, minalanmış sahələr və müdafiə sədlərinin qurulduğunun şahidi olduq. Aydındır ki, onlar bunu torpaqlarımızı əbədi işğal altında saxlamaq üçün etmişlər. Onların taktikası, danışıqlarda iştirak etmək, müəyyən məsələlərə razılıq vermək, digərlərini qəbul etməyərək prosesin imitasiyası ilə məşğul olmaqdan, həlledici qərar verməyə gəldikdə isə geriyə addım atmaqdan ibarət idi".

Ermənistanın hərbi təxribatlarından sonra əks-hücuma keçən Azərbaycan Silahlı Qüvvələrinin bölmələri ilk olaraq düşmənin yaratdığı bir neçə mərhələdən ibarət müdafiə mövqelərini, xüsusilə möhkəmləndirilmiş istehkamları keçməli oldular. Bu cür gücləndirilmiş müdafiə səddinin yaradılması göstərir ki, Ermənistan Azərbaycan torpaqlarını azad etmək fikrindən tamamilə uzaq imiş.

### İlham ƏLİYEV: "Onlar müharibə vaxtı nə baş verdiyini xatırlamalıdırlar"

Əvvəldə qeyd edildiyi kimi, müharibə başa çatıb. Lakin bu gün Ermənistandakı bir çox siyasi qüvvələr gələcəyə baxmaq, regional əməkdaşlığı yaratmaq əvəzinə revanş hissi ilə yaşayır, üçtərəfli Bəyanatın şərtlərinin qəbulolunmaz olduğunu iddia edirlər.

Digər tərəfdən, türkofobiya Ermənistanda rəsmən ideoloji siyasətin əsasını təşkil edir. Türkiyəyə qarşı ərazi iddiaları hətta bu ölkənin konstitusiyasında təsbit olunub. Dünyada ikinci belə dövlət yoxdur ki, ana qanununda başqa bir ölkəyə qarşı ərazi iddiası yer alsın. Məğlub Ermənistan əvvəlcə bu ideoloji buxovlardan xilas olmalıdır. Bu gün onun qonşu dövlətlərlə normal münasibət qura bilməməsinin, işğal siyasətinin qurbanı olmasının da əsas səbəbi sivil və bəşəri dəyərlərdən uzaq olmasıdır. Prezident İlham Əliyevin dediyi kimi, azərbaycanofobiya, türkofobiya onların yeganə amilinə çevrilib: "Biz, hətta Ermənistanla mümkün sülh razılaşması barədə danışa bilərik və mən bunu bir neçə dəfə demişəm. Bizim planlarımız budur. Lakin biz Ermənistan tərəfdən bu cür mesajlar almamışıq. Ermənistanın baş naziri susur, Ermənistanın xarici işlər naziri çox aqressivdir və indi Ermənistan elə vəziyyətdə deyil ki, Azərbaycana qarşı aqressiv olmağı özünə rəva görsün. Onlar müharibə vaxtı nə baş verdiyini xatırlamalıdırlar. Ermənistan müxalifəti hazırda faktiki olaraq isterikadadır və azərbaycanofobiya, türkofobiya onların əsas, - bu, hər zaman çox mühüm olub, - lakin indi zənnimcə, yeganə amilinə çevrilib".

Konfransda qeyd olunduğu kimi, Ermənistanda Azərbaycanla bağlı deyilən istənilən müsbət söz xəyanət hesab olunur. Ona görə regionda sülh və təhlükəsizliyin tam bərqərar olması üçün ilk növbədə Ermənistan qonşulara qarşı düşmənçilik münasibətindən əl çəkməlidir. Əks təqdirdə, dövlət başçısının da dediyi kimi, müharibə vaxtı nə baş verdiyini xatırlamalıdırlar.

Aparıcı beyin mərkəzlərinin nümayəndələri bu konfransda bir çox həqiqətləri öyrəndilər. İlham Əliyev onların suallarını cavablandırarkən həm də mesajlarını çatdırırdı. Azərbaycan Prezidenti bir daha bəyan etdi ki, əgər xalqımıza və ya ərazi bütövlüyümüzə qarşı bir az risk təhlükəsinin olduğunu görəriksə, özümüzü müdafiə etmək üçün bütün vasitələrdən istifadə edəcəyik.

Hazırda Azərbaycanın əsas prioriteti işğaldan azad olunmuş ərazilərin bərpası və məcburi köçkünlərin doğma yurdlarına qayıtmasıdır. Artıq ilk olaraq infrastruktur layihələrinin icrasına başlanılıb. Dövlət başçısı bu istiqamətdə görüləcək işləri də konfrans iştirakçılarının diqqətinə çatdırdı. Artıq Füzulidən Şuşaya, Şuşadan Cəbrayıla, Horadizdən Zəngilana, Bərdədən Ağdama avtomagistralların tikintisinə başlanılıb. Daha bir yol isə Kəlbəcərə çəkilir.

Bununla yanaşı, maksimum 2 ilə bütün Qarabağ elektrik enerjisi ilə təchiz olunacaq. Ermənistanın dağıtdığı kənd və şəhərlərin yenidən qurulmasına gəldikdə isə, ilk olaraq Zəngilanda kəndlərdən birində "ağıllı" kənd pilot layihəsinin icrasına başlanılıb. İlk şəhərsalma layihəsi isə Ağdamda həyata keçiriləcək. Məcburi köçkünlərin nə vaxt öz yurdlarına qayıtmasına gəldikdə isə, Prezident İlham Əliyev dedi: "Beləliklə, dəqiq nə vaxt olacağını demək mənim üçün çətindir. Ancaq ümidvaram ki, gələn ildən etibarən, mərhələli şəkildə köçkünlərin ilk qrupu yerləşdirilməlidir".

### Prezident antiazərbaycançı qüvvələrin iddialarını darmadağın etdi

"Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda çox məsələlərə toxunuldu, İlham Əliyev onların hər biri barədə Azərbaycanın mövqeyini beynəlxalq ictimaiyyətə çatdırdı. Dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələrinin iştirakı ilə keçirilən bu konfrans həm də onu göstərdi ki, Prezident İlham Əliyev təkcə dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə deyil, həm də dövlətin informasiya siyasətinə yeni strateji baxış nümayiş etdirir.

Eyni zamanda yeni strateji baxış və bütövlükdə İlham Əliyevin yeni informasiya strategiyası şəffaflıq, obyektivlik, sistemlilik, operativlik kimi prinsiplərə əsaslanır. Bu strategiya Azərbaycanın milli maraqlarının müdafiəsi, ölkə həqiqətlərinin müasir üslubda dünya ictimaiyyətinə çatdırılması, cəmiyyətin hərtərəfli məlumatlandırılması, ictimai rəyə hörmət kimi mühüm amillər üzərində qurulub. Təsadüfi deyil ki, xarici ekspertlər də İlham Əliyevin müzakirə və debatlarda, mətbuat konfranslarında ən mürəkkəb suallara açıqlığını və onları təmkinlə, peşəkar formada cavablandırmaq bacarığını, yüksək məntiqini, intellektini, diplomatik məharətini, dünyada, regionda və ölkəmizdə baş verən hadisələr və cərəyan edən proseslər barədə fikirlərini, elmi-politoloji biliyini yüksək qiymətləndirir və Azərbaycan Prezidentinin dünya səviyyəli siyasətçi olduğunu bildirirlər.

Birmənalı şəkildə demək olar ki, istər müharibə günlərində, istərsə də postkonflikt dövründə İlham Əliyevin informasiya sahəsində fəaliyyəti Ermənistanın, erməni lobbisinin və Azərbaycanı istəməyən xarici qüvvələrin tərk-silah edilməsində, onların arqument və iddialarının darmadağın edilməsində, beynəlxalq ictimaiyyətin obyektiv məlumatlandırılmasında mühüm rol oynadı. Bu baxımdan "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfrans və bu tədbirdə iştirak edən dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələrinin nüfuzlu analitik, siyasətçi, öz ölkələrində və dünyada politoloji fikrə, ictimai rəyə təsir edən şəxslər olmaları göstərir ki, İlham Əliyevin yeni informasiya strategiyası Azərbaycan həqiqətlərini beynəlxalq auditoriyaya uğurla çatdırır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Kosmos ölkəsinin yeni nəsil savaşı

## Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərdə peyk sistemimizin böyük töhfəsi oldu

*Əvvəli 1-ci səh.*

Fəaliyyətdə olduğu bütün illər ərzində "Azersky" peyki vasitəsilə mütəmadi olaraq işğal altında olmuş torpaqlarımızda düşmən tərəfindən təbii resursların qeyri-qanuni talan edilməsi, yeni salınan qeyri-qanuni yaşayış məntəqələrinin, törədilmiş yanğınların monitorinqi və dəymiş ziyanın qiymətləndirilməsi aparılıb.



### "Ağıllı" kənd layihələrinə dəstək

"Azersky"ın xidmətlərindən kənd təsərrüfatı, xəritəçəkmə, infrastrukturun planlaşdırılması və monitorinqi, kadastr məlumatlarının yenilənməsi, dənizdə və quruda neft çirklənmələrinin tədqiqi, müdafiə, təhlükəsizlik və digər sahələrdə də istifadə edilir.

2015-ci ildən etibarən "Azersky" peyki ölkənin müdafiə və təhlükəsizliyi üçün davamlı istifadə edilir. Bunlarla yanaşı, Azərbaycana qarşı müxtəlif informasiya təxribatlarının qarşısının alınmasında da "Azersky"ın imkanlarından yararlanmaq mümkün oldu.

Peyklərin orbitə çıxarılması həm də infrastruktur layihələrinin icrası və mövcud infrastrukturun qorunmasında da böyük əhəmiyyətə malikdir. Ona görə də peyklərimizin post müharibə dövründə də mühüm əhəmiyyət kəsb etdiyini vurğulamaq yerinə düşərdi.

Hazırda azad olunmuş ərazilərimizdə əsas məqsədlərdən biri intensiv kənd təsərrüfatı modelinin qurulmasıdır. İntensiv kənd təsərrüfatı özü-özlüyündə daha müasir həllər tələb edir. Buraya əsasən dəqiq, "ağıllı" (smart) kənd təsərrüfatı daxildir ki, bu da aqrar sektor üçün nəzərdə tutulmuş ərazilərin hər bir nöqtəsinə individual yanaşma nəzərdə tutur.

Azad olunmuş torpaqlarımızda "Azersky" peykinin təsvirlərindən və ən müasir analiz və monitorinq alətlərindən istifadə etməklə ərazilərin xüsusiyyətlərinə uyğun elektron kənd təsərrüfatının qurulması, məhsuldarlığın qiymətləndirilməsi və proqnozlaşdırılması, bitki örtüyünün dəqiq xəritəsinin hazırlanması mümkündür. Bu da bizə kənd təsərrüfatı sahəsində daha optimal nəticələr almağa imkan verir.

"Azərkosmos"dan əldə etdiyimiz məlumata görə, artıq qurum azad olunmuş ərazilərdə böyük aqroparkların salınması üçün uyğun ərazilərin seçilməsi üzrə sorğu və müraciətlər alıb. Bu müraciətlər əsasında "Azersky" peyki vasitəsilə bir çox layihələrin reallaşması mümkün olacaq.

### 2020-ci ildə 50,2 milyon dollarlıq gəlir

Bütün bunlar təsdiq edir ki, 2011-ci ildə "Azərkosmos"un yaradılması İlham Əliyevin ölkədə yalnız kosmik sənayenin inkişafına, informasiya texnologiyalarının yüksəlməsinə verdiyi önəm deyil, həm də Qarabağın düşmən tapdağından hərbi yolla azadlığı istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlərinin tərkib hissəsi idi.

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan artıq orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən biridir. Əlbəttə ki, informasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır. Bu uğurla ölkəmiz telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını da aradan götürüb.

Dünyada geniş yayılan koronavirus pandemiyasının mənfi təsirlərinin fonunda 2020-ci ilin Azərbaycanın peyk layihələrinin icrası və ümumilikdə "Azərkosmos" üçün uğurlu keçdiyini deyə bilərik. Ötən il hər üç peykimizin xidmətlərinin göstərilməsindən 50,2 milyon ABŞ dolları gəlir əldə edilib, bu göstərici 2019-cu ilin göstəricisindən 2 faiz çoxdur.

Bu gün Azərbaycan regionun lider ölkəsi olaraq qlobal layihələrin təşəbbüskarı, həlledici halqasıdır və beynəlxalq müstəvidə özünəməxsus yer tutur. "Azərkosmos" da öz miqyasında regional və qlobal peyk xidmətləri bazarında ölkəmizin inkişaf sürəti və iddialarına uyğun olaraq fəaliyyət göstərir. Kosmik sənayedə əldə edilən uğurlar ölkəmizin qeyri-neft sənayesinin davamlı inkişafına da böyük töhfə verir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Mənəviyyat zirvəsi, şəxsiyyət ucalığı

Əvvəli 1-ci səh.

Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhvali-ruhiyyədədirlər. Onlar bu əhvali-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür...

...Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib. Eyni zamanda qəmli gündür. On il keçsə də, mən bu qəmdən ayrıla bilmirəm".

Bu fikirləri Heydər Əliyev 1995-ci ildə Zərifə Əliyevanın vəfatının 10-cu ildönümündə onun məzarını ziyarət edərkən söyləyib...

## Sənsiz...

Vəfatından sonra nəğməyə döndü, həzin, lirik, düşündürən və kövrəldən nəğməyə:

*Sən gedəndən bu yerlərdə ətirsiz güllər,*
*Sənsiz, günəşsiz qaldı günlər.*
*Getdin, daha da əziz müqəddəs oldun.*
*Zərif xatirə oldun, uzaq səs oldun...*

Bu misralar Fikrət Qocanındır, Sevil Əliyevanın anasının xatirəsinə bəstələdiyi musiqi ilə həmahəng olub... İlk ifaçısı Müslüm Maqomayevi dinləyən Heydər Əliyev Müslümə zəng edib ki, nə yaxşı mahnıdır bu, adamı kövrəldir. Müslüm Maqomayev cavab verib: "Ona görə ki, bu mahnı əziz Zərifə xanımın xatirəsinə həsr edilib".

## Ailə mühiti

Azərbaycanın görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyev 1918-ci ildə Sankt-Peterburqda tibb təhsili alırdı. İrəvanda ailəsinin ermənilərin təqiblərinə məruz qaldığını eşidib təhsilini yarımçıq qoyub onları Şahtaxtı kəndinə köçürmək üçün vətənə geri qayıtmağa məcbur olur. Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində Əziz Əliyevlə Leyla Abbasovanın ailəsində anadan olur.

Həmin ilin may ayında ailə Bakıya köçür. İrəvan gimnaziyasını qızıl medalla bitirən Əziz Əliyev yarımçıq qoyduğu tibb təhsilini davam etdirir. O, Bakıda universitetin Tibb fakültəsini, sonra isə aspiranturanı bitirir. Qısa zamanda elmlər namizədi olur, sonra isə doktorluq dissertasiyasını müdafiə edir. 1929-cu ildə 32 yaşlı Əziz Əliyev Azərbaycan Səhiyyə Komissarlığında komissarın müavini vəzifəsində çalışır.

Əziz Əliyevin Bakıda böyük əhatəsi vardı. Onların evində tez-tez dövrün siyasi, ictimai, mədəniyyət xadimləri yığışardılar. Zərifə xanım Üzeyir bəy Hacıbəyli, Müslim Maqomayev, Mirəsədulla Mirqasımov, Bülbül, Səməd Vurğun və başqa görkəmli şəxsiyyətlərlə ailəvi dostluq mühitində böyüyüb, tərbiyə alır.

## Atanın yolu ilə...

Atası kimi taleyini tibb elminə bağlamağı qərar verən Zərifə Əliyeva 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə qəbul olunur. Oxuduğu illərdə həm ali məktəbdə, həm də ailədə tibbi dərinliklərinə qədər öyrənməyə çalışır. İstiqamətini düzgün seçmişdi. Tibb onun genetikasında idi. İstənilən peşənin həvəskarı ola, hətta ona yiyələnə də bilərsən, amma yaranışdan daşıyıcısı deyilsənsə, yerində olmayacaqsan.

Zərifə Əliyeva tibbi təhsilində, sonralar tibb elmində ona görə uğurlar qazanırdı ki, bu peşə yaranışında vardı. 1947-ci ildə Zərifə xanım institutu əla qiymətlərlə bitirəndə Azərbaycanda traxoma deyilən göz infeksiya xəstəliyi yayılmışdı. Bu xəstəlik gözü zədələyir, ağır nəticəyə, hətta korluğa səbəb olurdu.

Müalicəsi isə yox idi. Bu bəlaya qarşı yalnız oftalmologiya yox, bütün Azərbaycan səhiyyəsi mübarizəyə qalxmışdı. Zərifə xanım bu sahəni hərtərəfli araşdırır, Azərbaycanın rayonlarını gəzib xəstələri müalicə edir, həkimlərə mühazirələr oxuyur, əhali arasında maarifləndirici iş aparırdı. Lakin ağır xəstəliklə mübarizədə bunlar azlıq edirdi. Xəstəliyi düzgün araşdırıb səbəbini və düzgün müalicəsini tapmaq lazım gəlirdi. Bu, böyük məsuliyyət tələb edirdi, insanları qaranlığa salan traxoma xəstəliyi elmi əsaslarla aradan qaldırılmasa, nəticələr çox ağır olardı.

## İlk elmi araşdırmalar

Bu istəklə Zərifə Əliyeva Moskvaya yollanır. Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik ixtisaslaşdırma kursu keçdikdən sonra vətənə həkim-oftalmoloq kimi qayıdır. 1949-cu ildən başlayaraq Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayan Zərifə xanım 1950-ci ildə aspiranturaya daxil olur.

Həm təcrübədə həkim fəaliyyəti ilə məşğul olur, həm də elmi axtarışlarını davam etdirir. Təbii ki, qaranlıqları işıqlandırmaq yollarını tapmaq üçün düşdüyü elmi cığırda ilk mərhələni traxoma infeksiya xəstəliyinin müalicəsinə həsr edir. Onun ilk elmi araşdırmalarının mövzusunu həyat özü yönləndirir. Məqsədi bu xəstəliyin kökünü kəsmək idi, nə qədər çətin və məsuliyyətli olsa da, zərif çiyinlərini bu işin altına vermişdi. Çox keçmir ki, uğur əldə etməyə başlayır. Xəstəliyin ağırlaşdırıcı hallarında qarşısını alacaq dərmanları, vasitələri müəyyənləşdirir. Aşkarladığı üsulla traxomanın ən çox yayıldığı rayonlara gedib ağır xəstələrin müalicəsi ilə şəxsən özü məşğul olurdu.

Bir gün məlumat alır ki, xəstəlik uşaq evlərində çox yayılıb, uşaqlar traxoma xəstəliyinə sürətlə tutulurlar. Buna görə Zərifə xanım uşaq evlərində fəaliyyətə başlayır və uğurlu nəticələr əldə edilir. Özü ilə apardığı həkim qrupu ilə birlikdə kimsəsiz uşaqlarda yayılan infeksiyanın qarşısını ala bilirlər. Bundan sonra o, tədqiqatının uğuruna güvənib 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanı müdafiə edir. Bu sahə üzrə ixtisaslaşaraq, elmlər namizədi dərəcəsinə yüksələn Zərifə xanımın təklif etdiyi müalicə metodu tezliklə bütün respublikada tətbiq edilir və Azərbaycan bu xəstəlikdən xilas olur.

## Həm də müəllim...

Əsl alim hansısa bir uğura imza atırsa, bu o deməkdir ki, kəşf edilməmiş sahələrə baş vurmaq üçün özünə yeni yol açır. Traxomanı məğlub edən Zərifə Əliyeva qlaukoma adlı göz xəstəliyinin tədqiqinə başlayır. Apardığı tədqiqatları mətbuatda dərc etdirməklə həm də o, bu sahədə çalışanların biliklərinin artırılmasına xidmət göstərirdi.

1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona oftalmologiya ixtisası üzrə böyük elmi işçi adı verir.

1967-ci ildə Zərifə xanım Əliyevanı Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət edirlər. İnstitut onun atası Əziz Məmmədkərim oğlu Əliyevin adını daşıyırdı. Zərifə xanım atasının uzun illər çalışdığı və indi onun adını daşıyan instituta işləməyə həvəslə razılıq verir. Həkimliyini isə yerə qoymur Zərifə xanım... Həm əməliyyatlara girir, həm də təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparmaqla digər xəstəxanalarda göz şöbələrinin işinə töhfələr verir.

## İlklərin müəllifi

Elmi tədqiqatlar da öz yerində... Dayanmadan araşdırır, ortaya yeni çıxan göz xəstəliklərinin müalicə yollarını axtarırdı.

Bunlar arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi xüsusi yer tuturdu. Görmə orqanının patalogiyası kimi elmi cəhətdən az araşdırılmış sahə onun diqqətini çox çəkirdi. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə yox, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin demək olar ki, elmi şəkildə tədqiq olunmaması ilə əlaqədar idi.

1968-ci ildən başlayaraq Zərifə xanım görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Əsas diqqətini isə yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə yönləndirdi. Buna görə də tez-tez sənaye müəssisələrində olurdu. Göz üçün zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Bu yolla həm onların göz xəstəliklərini müalicə edir, həm də elmi araşdırmasını aparırdı. Klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdi.

"Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiyanı Zərifə Əliyeva H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə edib.

Bu iş həmin sahədə ilklərdən biri idi. 1977-ci ildə Zərifə xanım tibb elmləri doktoru elmi dərəcəsini alır. Doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra həm də Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilir.

1983-cü ildə isə həmin kafedranın müdiri olur. Ətrafına istedadlı gənc həmkarlarını toplayaraq, elmi-tədqiqat işini, kadrların və elmi işçilərin hazırlanmasını təşkil etməyə başlayır. Bunun üçün ona kafedranın bazası imkan vermirdi. Belə ki, elmi tədqiqatlar üçün yaramırdı köhnə baza.

## Yüksək mükafata layiq olan ilk qadın

1977-ci ildə professor Zərifə Əliyevanın təklifi ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Belə tədbir Bakıda ilk dəfə keçirilirdi və təbii ki, böyük təşkilatçılıq bacarığı və zəngin təcrübə tələb edirdi. Plenuma hazırlığın və onun keçirilməsinin bütün ağırlığı Zərifə xanımın üzərinə düşdü. Bu plenumun keçirilməsi həm Azərbaycanda, həm də keçmiş ittifaqın ən yaxşı akademik müəssisələrində oftalmologiya xidmətinin inkişafında, elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna rol oynadı.

Plenumda professor Zərifə xanımın Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması barədə təşəbbüsü bəyənildi. 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda Zərifə xanımın təşəbbüsü və təşkilatçılığı ilə yaradılan həmin laboratoriyada az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə qiymətli tədqiqatlar aparıldı. Elmi araşdırmalar nəticəsində Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirdi. Bu əsərlər dünya oftalmologiya elmi ictimaiyyəti üçün yenilik idi.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. O, həm də bu mükafata layiq görülən ilk qadın idi.

## Maraqlı tədqiqatların müəllifi

1983-cü ildə Zərifə xanım Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Çünki onun elmi maraqları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də var idi. Həmin elmi işlərin tətbiqi bir sıra xəstəliklərin differensial diaqnostikasını asanlaşdırdı. Onların müalicəsini tezləşdirdi. Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri, "Herpetik göz xəstəliyi", "Ağır virus konyiktivləri" məhz bu məsələlərə həsr olunub.

Zərifə xanım qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuş maraqlı tədqiqatlar aparıb. Bu sahədə "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" və "Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi" monoqrafiyalarını çap etdirib.

Gözlərin zədələnməsinin profilaktikası və müalicəsi yollarını da Zərifə xanım açıb. Onun bu araşdırmaları cərrahiyədən sonra gözün müalicəsində əhəmiyyətli dəyişikliklər edib.

Alimin görmə orqanında bədxasiyyətli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuş elmi işləri də var. Zərifə Əliyevanın daktriologiyadan bəhs edən "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların işinə yarayır. Zərifə xanımın həmmüəllif olduğu "Terapevtik oftalmologiya" kitabı indi də oftalmoloqların stolüstü kitabıdır.

Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını (gözün əlvan təbəqəsində dəyişikliyi, iridodiaqnostikanı) ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya xeyli elmi məqalələr həsr edib.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilib.

## "Yüksək etimad"lı ana və qadın

Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi barədə professor N.B.Şulpina və L.F.Moşetova birlikdə "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında geniş bəhs ediblər. Bu kitab oftalmoloqlar üçün təcrübədirsə, həkimləri təkmilləşdirmə kurslarının müəllimləri üçün dərs vəsaitidir.

Yüzlərlə elmi məqalə və əsərlərin müəllifi olan Zərifə xanımın "Yüksək etimad" kitabı cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə yardımçıdır.

Zərifə Əliyeva Azərbaycan iridologiyasının banisidir, bu sahədə elmi məktəb yaradıb...

Onun elmdə fəaliyyətləri təqdirəlayiqdir və bu gün də əhəmiyyətlidir. İnsan, şəxsiyyət necə olmalıdır mənasında isə Zərifə xanımın öz həyatı və fəaliyyəti nümunədir.

Zərifə Əliyeva ölkəyə uzun illər rəhbərlik edən böyük bir şəxsiyyətin həyat yoldaşı idi...

Onların izdivacı mükəmməl ailənin özülü idi. Ailə qayğısı, ölkəni idarə edən bir kişinin həyat yoldaşı olub onunla birgə addımlamaq özü böyük məsuliyyətdir. Bunun üstünə analıq məsuliyyətini də gələndə Zərifə xanımın necə bir qadın olmasına şərh verməyə ehtiyac qalmır.

Zatən nəticə göz qabağındadır...

Tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı İlham Əliyev həm də Zərifə xanımın şah əsəridir...

## Qəlblərdə əbədi yaşayacaq

Akademik Zərifə Əliyeva ictimai işlərdən də geri qalmazdı. Hər vəzifəyə seçilməsi isə onun məsuliyyətini bir az da artırırdı. Keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olub... Zərifə xanım səmərəli əməyinə görə bir çox orden və medallara layiq görülüb, ona Azərbaycanın Əməkdar elm xadimi fəxri adı verilib.

Həyatın təzadı ondadır ki, bütün elmi fəaliyyətini insanların sağlamlığı, qaranlıqdan işığa çıxması üçün yönləndirən insan özü amansız xəstəliyə düçar olur. Xərçəng xəstəliyi onun işıqlı həyatına son qoyur. Zərifə xanım 1985-ci il aprelin 15-də Moskvada 61 yaşında dünyasını dəyişir.

Bu gün Bakıdakı Fəxri xiyabanda sadiq ömür-gün yoldaşı ilə birlikdə uyuyur. Məzarları hər gün təzə-tər güllərə bürünür olunur...

Vəfatından sonra nəğməyə döndü. Bu nəğmə hər zaman onu sevənlərin, onun şəfalı əlləri ilə dünya işığını görənlərin qəlbində oxunur...

*Özü əməlləri ilə insanların qəlbində yaşayır*
*Ürək tək yaxın oldun, görünməz oldun,*
*Əl çatmaz, ün yetməz oldun.*
*Məhəbbətin günəşdən böyük, təmizdir.*
*Başım üstə yanacaq hər an.*
*Səndən qalan xatirə mavi dənizdi.*
*Böyüklüyün səmadan dərin, təmizdir...*

**Ramilə QURBANLI,**
**"Azərbaycan"**

15 Aprel Ümumdünya Mədəniyyət Günüdür

# Xalqları bir-birinə yaxınlaşdıran ünsiyyət vasitəsi

Əvvəli 1-ci səh.

Son illər ölkəmiz həm Qərbin, həm də Şərqin mədəniyyət məsələlərinin aparıcı rol oynadığı beynəlxalq qurumlarda fəal iştirak edir. Azərbaycan bu sahədə, demək olar ki, hər il beynəlxalq mədəni konvensiyaya, sənədə, təşəbbüsə qoşulur, onun icrasına dəstək verir. Bu sahədə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın xidmətləri əvəzsizdir.

Azərbaycan dövləti daxil olduğu beynəlxalq qurumlarda yalnız öz mədəniyyətini təbliğ etmir. Yaxud ancaq dünya mədəniyyətinin Azərbaycanda təbliği ilə məşğul olmur. Eyni zamanda dünya mədəniyyətinin yaranmasında və inkişafında xalqımızın yaxından iştirakını da təmin edir.

Xüsusilə son zamanlar həm maddi, həm də qeyri-maddi mədəni irsin dünyaya təqdim olunmasında böyük hadisələrin baş verdiyinin şahidiyik. Qobustandakı qayaüstü rəsmlərinin, İçərişəhər Dövlət Qoruğunun dünyanın böyük mədəni irsinin nümunələri siyahısına daxil edilməsi heç də təsadüfi deyil. Eləcə də xalqımıza məxsus muğam, aşıq, xalça sənətlərinin dünya mədəni irs siyahısına salınması, milli bayramımız Novruzun xalqımızın mənəvi-mədəni sərvəti kimi dünyaya təqdimi, onun BMT-nin qeyri-maddi irs siyahısına əlavə edilib beynəlxalq status qazanması mənəvi sərvətlərimizə sahibliyimizin bariz nümunəsidir.

Bütün bunlar mədəni sərvətlərimizin qorunub saxlanılması, inkişafı, daha uğurlu şəkildə, müasir texnologiyalara uyğun formada dünyaya təqdimatı sahəsində yürüdülən dövlət siyasətinin prioritetlərindəndir.

Azərbaycan son illər bir çox beynəlxalq mədəniyyət tədbirlərinə evsahibliyi edir. Bu gün nəinki Avropa məkanında, dünyanın mədəniyyət mərkəzlərindən biri sayılan Bakıda, eləcə də respublikamızın regionlarında beynəlxalq mədəniyyət və idman tədbirləri təşkil olunur. Azərbaycan gənclərinin "Eurovision" beynəlxalq mahnı müsabiqəsində qalib gəlmələri yalnız xalqımızın istedadının üzə çıxması deyildi. Ölkəmizin belə mötəbər tədbirlərə ev sahibi kimi məsuliyyətli vəzifəni təşkil ertməyi öz öhdəsinə götürmək bacarığı və imkanlarının təsdiqi, eyni zamanda musiqi mədəniyyətinin gələcəyinə təminat verməsi demək idi. Son 20 ildə ölkəmizdə, xüsusən də paytaxt Bakıda keçirilən beynəlxalq tədbirlərin sırasına nəzər salsaq, yüzlərlə belə toplantının adını çəkə bilərik.

Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən dövlət mədəniyyət siyasəti çox uğurlu bir istiqamət alıb. Bura, ilk növbədə, xalqımızın tarix boyu yaratdığı klassik mədəniyyətin mənimsənilməsi daxildir. Bu sırada 2000-ci ildə "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsi də böyük hadisə oldu.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 15 fevral 2013-cü il tarixində imzaladığı "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli qanununun tətbiqi barədə fərmanı isə ümumilikdə bu sahənin inkişafı yönümündə dövlət tərəfindən atılan ən mühüm addımlardan biridir.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2014-cü ildən Qəbələdə keçirilən Üzeyir bəy Hacıbəyli Beynəlxalq Musiqi festivalları nəinki Azərbaycanın, iştirakçı ölkələrin mədəniyyət tarixinə yazılır. Festivalın açılışı münasibətilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın beynəlxalq musiqi bayramı iştirakçılarına təbrik məktubunda deyilirdi: "Beynəlxalq mədəni əlaqələr, qarşılıqlı mədəni inteqrasiya bu gün də Azərbaycanın dövlətlərarası siyasətinin əsas prioritetlərindən biridir. Xalqlararası mədəni-mənəvi inteqrasiyanın səmərəliliyini artıran layihələr bizim üçün çox dəyərlidir. Biz bu festivalı müxtəlif millətlərin musiqi mədəniyyətinin qarşılıqlı zənginləşməsinə, xalqlararası dostluq münasibətlərinin daha da möhkəmlənməsinə verilən böyük bir töhfə kimi dəyərləndiririk".

Azərbaycan, təbii ki, bu gün dünyadakı mədəni inkişaf prosesindən kənarda deyil. Milli mədəniyyətini bəşəriyyətə layiqincə təqdim edən xalqımız eyni zamanda tolerantlığı və multikulturalizmi dövlət səviyyəsində qoruyub saxlayır ki, bu da onun özünəməxsus xüsusiyyətlərindən biridir.

Azərbaycan mədəniyyəti həmişə bəşəriyyətə açıq olub. Çünki o, bir tərəfdən Şərq mədəniyyəti ilə çox bağlıdırsa, digər tərəfdən Qərb mədəni dəyərlərini özündə ehtiva edir. Azərbaycanın dünya mədəniyyətinə inteqrasiyasında kifayət qədər güclü tarixi təcrübəsi var. Lakin respublikamızın dövlət müstəqilliyinin bərpasından sonrakı illərdə bu məsələlər həm elmi-nəzəri baxımdan təhlil olunur, həm də dövlət siyasətində xüsusi yer tutur. Milli mədəniyyətimizin dünya xalqlarının mədəniyyəti ilə sıx əlaqəsi, sadəcə, deklorativ bir müddəa şəklində bəyan edilmir. Bu, beynəlxalq təşkilatlarla - UNESCO, Avropa İttifaqı, Avropa Şurası ilə əməkdaşlıq şəraitində həyata keçirilən, evsahibliyi etdiyimiz beynəlxalq layihələrlə, tədbirlərlə də sübut olunur.

Bütün bunlarla yanaşı, onu da qeyd edək ki, respublikamızda yaşı minilliklərə gedən milli mədəniyyətimizin qorunub saxlanması dövlətin humanitar siyasətinin əsasını təşkil edir. Klassik irsə mədəni münasibət dövlət siyasətinin prioritetlərindən biridir. Son illər tarixi şöhrətə çatan şəhərlərimizin "mədəniyyət" və "folklor" paytaxtı elan olunmaları nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapır. Bu gün qürurla Azərbaycanın "Mədəniyyət paytaxtları"ndan danışırıq. "Mədəniyyət paytaxtları"nın seçilməsilə bağlı Dövlət Proqramı qəbul edilib. Artıq neçə illərdir ki, bu layihə çərçivəsində respublikanın müxtəlif şəhərləri "paytaxt" statusu daşıyır.

XII əsrin yadigarı Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar 2021-ci ilin "Nizami ili", həmçinin təcavüzkar Ermənistanın işğalından azad edilən, "Qafqazın Konservatoriyası" adlanan Şuşa şəhərinin də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Mədəniyyət paytaxtı" elan olunması, "Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər" fikrini söyləməsi bir daha dövlət başçısının xalqımızın milli-mənəvi, eləcə də maddi-mədəni sərvətlərinə qayğısının bir daha əyani təsdiqidir.

**Məhəmməd NƏRİMANOĞLU,**
**"Azərbaycan"**



# İŞİMİZ, GÜZƏRANIMIZ

## Orta aylıq pensiya məbləğində növbəti artım qeydə alınıb




Sosial təminat sisteminin mühüm komponenti olan pensiyaların məbləğində artım 2021-ci ilin ilk rübündə də davam edib.

Yanvar-mart aylarında pensiyaların orta aylıq məbləği ilin əvvəlinə nisbətən 11,8 faiz artaraq 1 aprel tarixinə 332 manata çatıb. O cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 362,3 manata çatıb ki, bu da ilin əvvəli ilə müqayisədə 10,7 faiz çoxdur.

## "Standard & Poor's" Azərbaycanın reytinqini yüksəldib




"Standard & Poor's Global Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanın xarici və yerli valyutada uzunmüddətli emitentin defolt reytinqini "BB+/V" səviyyəsinə yüksəldib.

AZƏRTAC agentliyə istinadla xəbər verir ki, reytinq "neqativ"dən "stabil"ə doğru dəyişdirilib.

"BB" kateqoriyasına daxil olan müstəqil dövlətlər arasında Azərbaycanın büdcə və xarici fiskal mövqeyi ən güclülərdən biri hesab olunur. Bu mövqe COVID-19-un səbəb olduğu zəif iqtisadiyyat dönəmində qorunub saxlanılıb. "S&P"in proqnozlarına görə, 2021-2024-cü illər ərzində Azərbaycanda ÜDM-in orta illik artım göstəricisi 3,4 faiz təşkil edə bilər. 2020-ci ildə COVID-19 səbəbilə Azərbaycanda ÜDM göstəricisi zəifləyərək 5 faiz təşkil edib.

Agentlik növbəti illərdə Azərbaycan iqtisadiyyatına investisiya həcminin artacağını, inflyasiya göstəricisinin dəyişəcəyini və işsizlik səviyyəsinin ortamüddətli period üzrə enəcəyini proqnozlaşdırır.

# Şəhid ailələrinə və qazilərə dövlət səviyyəsində qayğıkeşlik davamlı xarakter daşıyır

Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğal olunması nəticəsində 1 milyon vətəndaşımız doğma yurd-yuvalarından didərgin düşmüş, düşmənlə müxtəlif illərdə aparılan döyüşlərdə minlərlə əsgərimiz şəhid və qazi olmuşdur. Azərbaycan dövləti bütün bu dövr ərzində imkanlarından maksimum istifadə edərək həmin kateqoriyadan olan insanların sosial problemlərinin həllinə xüsusi qayğı göstərmişdir.

Təkcə məcburi köçkünlər üçün hər cür şəraiti olan 100-dən çox yaşayış qəsəbəsi salınmışdır. Bu gün isə şəhid ailələrinə və qazilərə belə imkanlar yaradılır. Hazırda Vətən müharibəsində şəhid olan döyüşçülərin ailələri və qazilər üçün dövlət tərəfindən müxtəlif sosial proqramlar həyata keçirilir. Bu kateqoriyadan olan vətəndaşların xüsusilə mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır.

Ümumiyyətlə, son üç ildə bu kateqoriyadan olan insanlara təqdim edilən mənzil və fərdi evlərin dinamikasında ciddi artım var. Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli sərəncamı bu istiqamətdə daha mühüm irəliləyişlərə imkan yaradıb. Həmin sərəncama əsasən, 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi ev təqdim olunacaq. Bununla 2014-2019-cu illərdə uçota alınmış bu kateqoriyadan olan şəxslər, eləcə də 2020-ci ildə hərbi əməliyyatlarda (o cümlədən Vətən müharibəsində) şəhid olanların ailələri və müharibə əlilləri yaxın 5 ildə mənzil və fərdi evlə tam təmin ediləcəklər.

Cari ildə isə 3 minədək mənzil və fərdi ev istifadəyə verilməklə bu sahədəki təminat proqramı 2018-ci ilə nisbətən 5 dəfəyə yaxın genişlənəcək. Məlumdur ki, Prezident İlham Əliyevin tapşırığı ilə keçmiş köçkünlər üçün tikilmiş mənzillər də şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilir. Artıq "Ümid" qəsəbəsindəki yaşayış binalarından təqdim edilən 30 mənzil də daxil olmaqla, 2021-ci ilin planı üzrə 230 mənzil verilib. Ümumilikdə isə indiyədək 9430 mənzil və fərdi ev paylanıb.

Ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərkən xəsarət almış hərbi qulluqçuların əlilliyinin səyyar formada əyani müayinələr aparılmaqla operativ qiymətləndirilməsi prosesi də davam edir. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim-ekspertlərindən ibarət işçi qrupu Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada təmsil olunan qurumların nümayəndələri ilə birgə hərbi qulluqçuların səyyar formada əyani müayinələrini həyata keçirir. Yaralı hərbi qulluqçuların paytaxt və regionlar üzrə yaşadıqları ünvanlarda, yaxud tibb müəssisələrində ziyarət edilməklə müayinəsi aktları tərtib edilir.

Hərbi qulluqçuların xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin hərbi həkim komissiyaları tərəfindən şəhadətnamələr təqdim olunur. Bundan sonra Səhiyyə Nazirliyinin və digər aidiyyəti qurumların tibb müəssisələri tərəfindən göndəriş elektron sistemə daxil edilir. Yekun mərhələ olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin göndərişlərə çevik şəkildə baxılaraq əlilliyin qanunvericiliyə uyğun operativ qiymətləndirilməsi aparılır.



Bundan əlavə, Azərbaycanda reabilitasiya texnologiyaları sektorunun gücləndirilməsi sahəsində Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə birgə icrasına başlanan layihəyə dair maraqlı tərəflərin məlumatlandırılması və prosesə cəlb olunması məqsədilə onlayn toplantı keçirilib. Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov, ÜST-ün Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Milli Məcilsin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc və digərləri iştirak ediblər.

Toplantıda Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təminatının daim gücləndirildiyi vurğulanıb. Reabilitasiya vasitələri növlərinin siyahısına ötən il daha 23 yeni növün əlavə edildiyi, hazırda həmin siyahıda reabilitasiya vasitələri növlərinin 60-a çatdığı qeyd olunub. Ölkəmizdə yüksək texnologiyalı protezlərlə və mühərrikli təkərli oturacaqla təminat proqramlarına başlandığı da diqqətə çatdırılıb.

Bütün bunlar ölkəmizdə sözügedən kateqoriyadan olan insanlara diqqətin davamlı xarakter daşıdığını göstərir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Göygöldə əkin sahələrinin su problemi həll edilir

### Rayondakı kənardan idarə olunan subartezian quyusu MDB-də bir ilkdir

Son illər ölkədə həyata keçirilən sosial-iqtisadi siyasət aqrar sahədə də köklü dəyişikliklərə səbəb olmuşdur. Regionlarda suvarılan torpaq sahələrinin genişləndirilməsi, mütərəqqi texnologiyalara əsaslanan aqroparkların, müasir heyvandarlıq komplekslərinin, iri fermer təsərrüfatlarının yaradılması nailiyyətlərin əldə olunmasında xüsusi rol oynamışdır.



Qazanılan bu uğurlarda suvarma sistemləri idarələrinin böyük rolu vardır. Bu baxımdan Göygöl rayonunda bir sıra məqsədyönlü işlər görülmüşdür. Qeyd edək ki, rayon Suvarma Sistemləri İdarəsinin kollektivi 15 min 200 hektar əkin sahəsinin vaxtında suvarılması üçün bütün imkanlardan maksimum istifadə edir. Hazırda kollektiv yaz-tarla işləri ilə əlaqədar hazırlıq işlərini daha da genişləndirmişdir. Xeyli vaxtdır ki, çayların, arxların və kanalların təmizlənməsi işlərinə başlanılmışdır. Xanarxı və Ərəbli arxlarında isə betonlama işləri sürətlə aparılır.

Göygöl suvarma suyu ilə təminatda əziyyət çəkən rayonlar sırasındadır. Bunu nəzərə alan dövlət başçısı hər il rayonda yeni subartezian quyularının qazılması ilə bağlı sərəncam verir. Təkcə keçən il rayonun 7 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 10 subartezian quyusunun qazılması üçün sərəncam imzalanmışdır. Həmin sərəncama uyğun olaraq, 9 quyu qazılaraq istifadəyə verilmişdir. Bir quyunun qazılması işləri isə başa çatmaq üzrədir.

Bundan başqa, idarə tərəfindən Göygöl və Gəncə ərazisindən keçən Xanarxın torpaq hissəsi beton üzlüyə alınır. Sel və daşqınların qarşısını almaq üçün Gəncəçay, Kürəkçay və Qoşqarçayın məcralarının təmizlənməsi işləri də davam edir. Xanlar, Qızılca, Nadel, Mollaosman, Bəhrəmbəy arxlarının isə dəhnələri möhkəmləndirilib. Hazırda qədim arx olan Xanarx kanalının Üçtəpə ərazisindən keçən hissəsində kanalın torpaq hissəsi beton üzlüyə alınır. Bu işlərlə yanaşı, uzun illər sudan çətinlik çəkən Göygöl rayonunun Haçaqaya kənd sakinlərinin su probleminin aradan qaldırılması istiqamətində də işlərə başlanılıb. Kənd əhalisi əkin sahələrini bu günə qədər maşınlarla gətirilən su hesabına təmin edirdilər. Amma yaxın zamanlarda kənddə yeni qazılan subartezian quyusunun işə salınması ilə bu problemin həllini tapacağı gözlənilir.

Hazırda Gəncə şəhəri və Göygöl rayonunda olan 285 subartezian quyusu ilə 4880 hektar ərazi suvarılır. Haçaqaya ərazisində qazılan subartezian quyusu isə 20 hektar ərazinin suvarılmasını təmin edəcək. Sudan əziyyət çəkən kənd sakinləri səbirsizliklə yeni qazılan subartezian quyusunun istifadəyə veriləcəyi günü gözləyirlər. Ümid edirlər ki, 75 ailənin yaşadığı kəndin su problemi tezliklə öz həllini tapacaq. Yeri gəlmişkən qeyd edək ki, 2020-ci ildə rayon əhalisinin əkin sahələrini suvarma suyu ilə təmin etmək, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına zəmin yaratmaq məqsədilə 242 subartezian quyusunda cari, 5 subartezian quyusunda isə əsaslı təmir işləri aparılmışdır. Ümumiyyətlə, su itkisinin qarşısının alınması, fermerlərin əkin sahələrini vaxtında suvarması üçün arxların təmizlənməsi və təmir-bərpası işləri də görülür. Nadel, Mollaosman, Qızılca və Bəhrəmbağ arxlarının və kanallarının dəhnələri şitlər, beton bloklar və digər vasitələrlə möhkəmləndirilir. Arxların və kanalların 26 min kvadratmetrlik hissəsi kol-koslardan təmizlənib. Boru kəmərində 4 kilometr uzunluğunda, beton kanallarda isə 6 kilometrədək hissədə təmir işləri görülüb. Bundan başqa, Xanlar arxında, Kürəkçay və Qoşqarçayda qapalı boru şəbəkələri təmir edilib. Bütün bunlar əkin sahələrinin tam suvarılmasına şərait yaradır.

Onu da bildirək ki, 1000 hektar ərazinin suvarılmasında istifadə edilən 10 nasos stansiyasının daim işlək vəziyyətdə olması nəzarətdə saxlanılır. Əsas su mənbələri isə Gəncəçay, Kürəkçay, Qoşqarçay və Şəmkir su anbarıdır. 1953-cü ildə Gəncəçayın üzərində inşa edilmiş, çayı sağ və sol qollara ayıran Xanarxı və Ərəbli kanallarını su ilə təmin edən platinada da mütəmadi olaraq təmizlik və təmir-bərpa işləri görülür. Dozular kəndində isə uzun müddət yararsız hala düşmüş kanalın əsaslı təmiri başa çatıb. Su itkisinin qarşısını almaq və əhalinin suvarma suyuna olan tələbatını maksimum dərəcədə ödəmək üçün kanalın 2 kilometrlik hissəsi polietilen boru ilə əvəz olunmuşdur.

Diqqətə çatdıraq ki, təkcə Azərbaycanda yox, MDB ölkələri arasında ilk dəfə olaraq Göygöl Suvarma Sistemləri İdarəsi rayonda kənardan idarə olunan subartezian quyusu yaratmışdır. Elektrik enerjisinə qənaət etmək məqsədilə yerli mütəxəssislər tərəfindən yaradılan bu sistem artıq özünü doğruldur. Belə ki, müasir avadanlıqlarla təchiz edilmiş quyunu internet şəbəkəsi aktiv olduğu müddətdə kompüter, planşet və ya telefon vasitəsilə idarə etmək mümkündür. Bunun üçün xüsusi proqram təminatından istifadə olunur. İdarənin rəisi İlqar Məhərrəmov deyir ki, il ərzində quyuların istifadəsi üçün 20 milyon kilovat enerji sərf olunur. Lakin bu qurğu vasitəsilə həmin sərfiyyatı yarıyadək endirmək mümkündür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Dənizdə külək enerjisi sahəsində əməkdaşlığa dair sənəd imzalanıb

Azərbaycanda bərpa olunan enerji sahəsinin inkişafı məqsədilə dənizdə külək enerjisi resursundan istifadə üzrə əməkdaşlığa dair Energetika Nazirliyi ilə Dünya Bankı Qrupunun üzvü Beynəlxalq Maliyyə Korporasiyası (IFC) arasında Anlaşma Memorandumu imzalanıb.

Bu memorandum Energetika Nazirliyi və Beynəlxalq Maliyyə Korporasiyasının ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin təşviqi, həmçinin energetika sektorunun maliyyə davamlılığı və səmərəliliyinin artırılması üçün bu sahədə özəl sektorun iştirakının dəstəklənməsi kimi ümumi məqsədlər kontekstində imzalanıb.

Energetika naziri Pərviz Şahbazov deyib: "Bərpa olunan enerji dövlət başçısı cənab İlham Əliyev tərəfindən 2030-cu ilə qədər Azərbaycanın sosial-iqtisadi və şaxələndirilmiş yeni inkişaf kursunun, eləcə də təmiz ətraf mühitə nail olmağın mühüm prioritetlərindən biri kimi müəyyənləşdirilib. Bərpa olunan enerjinin istehsal və istehlakda əhəmiyyətli mövqeyə malik olması dənizin də külək enerjisi potensialından istifadəni zəruri edir. Xəzər dənizinin zəngin enerji resursları yalnız karbohidrogen sənayesinin deyil, yaşıl enerji sektorunun inkişafı üçün də mühüm mənbədir. IFC ilə birgə əməkdaşlıq səyləri Azərbaycanda dənizdəki külək enerjisinin istehsalının inkişafına, habelə bərpa olunan enerjidən istifadə sahəsinə və karbon emissiyalarının azaldılmasına töhfə verəcək."

Beynəlxalq Maliyyə Korporasiyasının Avropa və Mərkəzi Asiya üzrə direktoru Vibke Şloymer deyib: "IFC-nin Azərbaycan üzrə strateji prioritetlərindən biri ölkənin özəl sektorun iştirak etdiyi yeni inkişaf modelinə keçidini dəstəkləməkdir. Neft və qaz resursları ilə zəngin olan ölkənizə dənizdə külək enerjisi potensialının müəyyənləşdirilməsinə və inkişaf etdirilməsinə yardım etməklə özəl sektorun inkişafı gücləndirilə, eyni zamanda, enerji keçidi dəstəklənə bilər. Bu, Azərbaycanın infrastrukturunun inkişafında və iqlim dəyişikliyi ilə mübarizədə katalizator rolunu oynayacaqdır."

Memoranduma əsasən, IFC ilə əməkdaşlıq Azərbaycanda dənizdə külək enerjisi potensialının qiymətləndirilməsini və yol xəritəsinin işlənib-hazırlanmasını, növbəti mərhələdə isə dənizdə müvafiq layihələrlə bağlı tenderlərin təşkili, özəl sektorla tərəfdaşlığın müəyyənləşdirilməsi, yardımçı investisiyaların həyata keçirilməsi kimi dəstəkləri nəzərdə tutur.

Anlaşma Memorandumu ilə nəzərdə tutulan bütün bu işlər IFC-nin "Dənizdə Külək Enerjisinin İnkişafı Proqramı" çərçivəsində yerinə yetiriləcək. Bu proqram Dünya Bankı Qrupunun təşəbbüsü olan "Enerji Sektorunun İdarəedilməsində Yardım Proqramı" - ESMAP çərçivəsində maliyyələşdirilir. ESMAP çərçivəsində aparılan ilkin təhlillərə görə, Azərbaycanda dənizdə külək enerjisinin texniki potensialı 157 QVt səviyyəsində qiymətləndirilir.

Xatırladaq ki, 100-dən çox ölkədə fəaliyyət göstərən Beynəlxalq Maliyyə Korporasiyasına Azərbaycan 1995-ci ildən üzvdür.

## Rəqəmsal Ticarət Qovşağının yeni funksionalı təqdim olunub

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM), Azərbaycan Mərkəzi Bankı (AMB) və Banklar Assosiasiyasının birgə təşkilatçılığı ilə "Rəqəmsal ekosistemin inkişafında maliyyə institutlarının rolu" mövzusunda onlayn konfrans keçirilib.

Konfransda Azərbaycanda rəqəmsal mühitin inkişafında əməkdaşlığın rolu, vahid ekosistemin formalaşmasının əhəmiyyəti, bu istiqamətdə çağırışlar və perspektivlər müzakirə olunub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı Azərbaycanda rəqəmsal ekosistemin inkişaf istiqamətləri, Prezidentin rəqəmsallaşma siyasəti və aparılan islahatlar barədə ətraflı məlumat verib. O qeyd edib ki, rəqəmsallaşmanın kommunikasiya xidmətlərindən istifadə etməklə elektron bankçılıq, səhiyyə və digər sahələrdə əhatə dairəsi genişləndirilir. Bu gün ölkədə elektron hökumətdən rəqəmsal hökumətə doğru, reaktiv xidmətlərdən proaktiv xidmətlərə keçid həyata keçirilir və bu da iqtisadi-sosial inkişaf üçün vacib məsələdir.

V.Qasımlı işğaldan azad edilmiş ərazilərdə rəqəmsal ekosistemin yaradılması istiqamətində aparılan tədbirlərdən danışıb. Dünya trendlərini, statistikaları və proqnozları səsləndirən icraçı direktor rəqəmsallaşmanın qlobal müstəvidə mövcud olan geniş inkişaf potensialında Azərbaycanın da payı olduğunu deyib.

Azərbaycan Rəqəmsal Ticarət Qovşağının (DTH) rəhbəri Məsumə Talıbova portalın təqdimatını edərək istifadəçilərə təqdim olunan elektron xidmətlərdən, həmçinin portalın yerli və beynəlxalq əməkdaşlıqlarının rəqəmsal ekosistemin inkişafına müsbət təsirindən bəhs edib.

Tədbirdə Rəqəmsal Ticarət Qovşağının və Azərbaycan Mərkəzi Bankının "Bank Market" platformasına inteqrasiyası və yeni funksionalın təqdimatı nümayiş edilib.

Rəqəmsal Ticarət Qovşağının vasitəsilə ilk dəfə olaraq məsafədən bank hesabı açan portalın m-rezidenti Koral Türkkan xaricdə yaşamasına baxmayaraq, Azərbaycanda mövcud olan biznesini portal vasitəsilə çox rahat şəkildə idarə edə bildiyini və təqdim olunan xidmətlərin bu istiqamətdə çox faydalı olduğunu, yeni funksionalın da çox geniş imkanlar yaratdığını vurğulayıb. O, xüsusilə "Marketplace" formatında olan və geniş bank seçimləri təqdim edən bu funksional istifadəçinin öz ölkəsində filialı olan bir bank seçməsi üçün çox rahat imkan nümayiş etdirib.

Tədbirin ikinci hissəsi maliyyə institutlarının iştirakçılarının sektorun cari vəziyyəti, çağırış və perspektivləri barədə məlumat xarakterli çıxışları ilə davam edib. Sonda isə 100 nəfərin də iştirak etdiyi interaktiv sual-cavab sessiyası baş tutub. Bank sektorunun rəqəmsallaşması və rəqəmsal həllərdən istifadə ilə bağlı suallar cavablandırılıb.

## Bu günədək 246 minə yaxın fermerə payızlıq əkinlərə görə subsidiya ödənilib

Kənd Təsərrüfatı Nazirliyi 2020-ci ilin payızlıq əkinlərinə görə fermerlərə subsidiya ödənişlərini davam etdirir. Monitorinq nəticələrinə uyğun olaraq müraciətləri təsdiqlənmiş daha 17,929 fermerə əkin subsidiyası ödənilib.

Bununla da müvafiq dövrdə payızlıq əkinlərə görə subsidiya almış fermerlərin sayı 245927 nəfərə çatıb. Ümumilikdə 335 min nəfərdən artıq fermer Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində 2020-ci il üzrə payızlıq əkinləri bəyan edib və onlardan torpaq sənədləri təsdiqlənən fermerlərin subsidiya müraciəti qəbul edilib.

Subsidiya almaq üçün elektron müraciəti təsdiqlənmiş fermerlərin sahələrində aparılan monitorinqlər başa çatmaq üzrədir. Torpaq sənədləri və əkin bəyanları ilə bağlı şübhələr yaranan fermerlərin sahələri monitorinqlərə cəlb olunur. Monitorinq və qiymətləndirmələr "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına uyğun olaraq çarpaz (elektron bəyannamə məlumatlarının Subsidiya İnformasiya Sistemində olan digər məlumatlarla üzləşdirilməsi), yerüstü müşahidə (peyk ilə və digər texniki imkanlarla əkinlərin və çoxillik əkmələrin müəyyən edilərək, elektron bəyannamə məlumatları ilə üzləşdirilməsi) və yerində müşahidə (seçmə üsulu ilə əkinlərin aparıldığı yerlərdə DAİM mütəxəssislərinin nəzarət və qiymətləndirmə tədbirlərini həyata keçirməsi) üsulları ilə aparılır. Fermerlərin əkin bəyanları təlimatlara uyğun olaraq yoxlanıldıqca, subsidiya ödənişləri həyata keçirilir.

Subsidiya qaydalarına uyğun olaraq, ödənişlər fermer kartlarına 25 faizi nağdlaşdırıla bilən və 75 faizi nağdsız hissə şəklində ödənilib. Fermerlər subsidiyanın nağdlaşdırıla bilinməyən hissəsi ilə gübrə, pestisid, toxum və ting təchizatçılarından təsərrüfatlarına lazım olan məhsulları POS-terminal vasitəsilə ödəniş etməklə əldə edə bilərlər. Subsidiya qaydalarında edilmiş son dəyişikliyə görə, fermerlər təsərrüfatları üçün gübrənin tam dəyərini "Fermer kartı" ilə nağdsız ödəmək imkanı qazanıblar.

## Ölkəmizin demoqrafik vəziyyəti açıqlanıb

İlin əvvəlindən ölkə əhalisinin sayı 7994 nəfər və ya 0,1 faiz artaraq 2021-ci il mart ayının 1-i vəziyyətinə 10127127 nəfərə çatmışdır. Bir kvadrat kilometrə düşən əhalinin sayı 117 nəfər olmuşdur.

Əhalinin 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Hazırda orta hesabla hər 1000 kişiyə 1002 qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin ilk iki ayı ərzində ölkədə 20984 doğulmuş körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 13,0 təşkil etmişdir. Doğulanların 53,2 faizi oğlan, 46,8 faizi isə qız uşaqlarıdır. Körpələrdən 510-u əkiz, 9-u isə üçəm doğulanlardır.

2021-ci ilin yanvar-fevral aylarında ölkədə 13338 ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 8,2 təşkil etmişdir.

Cari ilin yanvar-fevralında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 5672 nikah və 2417 boşanma halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,5, boşanmaların sayı isə 1,5 olmuşdur.

Bu ilin yanvar-fevral ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 395 nəfər gələn, Azərbaycandan isə 47 nəfər gedən qeydə alınmış, miqrasiya saldosu ölkə üzrə müsbət 348 nəfər təşkil etmişdir.

## Azərbaycan İnvestisiya Holdinqi dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə *açıq tender elan edir*

Tenderdə dəftərxana və təsərrüfat mallarının təchizatı və istehsalı sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident mikro, kiçik və orta sahibkarlıq subyektləri, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az vahid internet Portalına elektron imzaları ilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər 300 (üç yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına "ASAN ödəniş" vasitəsilə köçürdükdən sonra tenderin Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər:

**Emitent**
**Kapital Bank ASC-nin Mərkəz filialı**
**Bank kodu: 200026**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK: AIIBAZ2X**
**Alan: Azərbaycan İnvestisiya Holdinqi**
**VÖEN: 1702893761**
**H/H: AZ13AIIB38060019440818786102**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderin iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi - ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyekti meyarlarına uyğun olması barədə arayış (Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının son 3 (üç) il ərzində oxşar müqavilələr üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *digər sənədlər (tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

a) iddiaçı tərəfindən malların təqdim olunmasına dair təklif olunan üsullar və yanaşma ilə bağlı təkliflər;

b) təqdim ediləcək malların dəyəri.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 07 may 2021-ci il saat 11:00-dək, tender təklifini və təklifin bank təminatını isə 19 may 2021-ci il saat 11:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 20 may 2021-ci il saat 11:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır. İddiaçılar açılışın formatı ilə dövlət satınalmalarının vahid internet Portalında tanış ola bilərlər.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Tender komissiyasının üzvü Babək Amaşov, telefon: (012) 599-87-80, daxili nömrə: 2008, otaq № 306, elektron poçt ünvanı: babek.amashov@aih.gov.az.

QEYD: Tenderdə iştirak, təkliflərin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan İnvestisiya Holdinqi tərəfindən "Azərbaycan" qəzetinin 24 fevral 2021-ci il tarixli nömrəsində dərc edilmiş telefoniya, telekommunikasiya, şəbəkə avadanlıqlarının alınması və quraşdırılması xidmətinin, proqram təminatı və antivirus proqramlarının satın alınması üzrə, eləcə də qəzetin 27 fevral 2021-ci il tarixli nömrəsində dərc edilmiş kəsintisiz qida qurğuları və onların quraşdırılması xidmətinin və kompüterlər, printerlər və sair avadanlıqların və onların quraşdırılması xidmətinin satın alınması üzrə təkliflər sorğuları prosedurlarında yaranmış texniki çatışmazlıqlar səbəbindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəyi nəzərə alınaraq qeyd olunan prosedurların ləğv edilməsi zərurəti yaranmışdır.

Həmin satınalma predmetləri üzrə növbəti dəfə yenidən elan veriləcəkdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Baş Prokurorluğu Bakı şəhər, S.Tağızadə küçəsi, 78 A ünvanında yerləşən inzibati binasında cari təmir işlərinin satın alınması üzrə təkliflər sorğusu proseduru həyata keçirir

Prosedur 16.04.2021-ci il tarixə kimi 3 gün müddətində keçiriləcəkdir.

Əlaqələndirici şəxs: Pərviz Adgözəlov.

Telefon nömrəsi: (012) 492-64-80

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 18 fevral 2021-ci il və 10 mart 2021-ci il tarixlərdə www.etender.gov.az Portalında, 19 fevral 2021-ci il və 11 mart 2021-ci il tarixlərdə "Azərbaycan" qəzetində dərc edilmiş özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə respublikanın rayonları üzrə əhalinin özünüməşğulluğunun təmin olunması ilə bağlı tələb olunan kənd təsərrüfatı mallarının satın alınmasına dair keçirilən açıq tenderdə Tender komissiyasının qərarı ilə zərflərin açılış tarixi və vaxtı 15 aprel 2021-ci il saat 12:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 05.03.2021-ci il tarixli nömrəsində dərc edilmiş Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan server, kompüter və rabitə avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması üzrə açıq tender Tender komissiyasının 13.04.2021-ci il tarixli qərarına əsasən, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 23 aprel 2021-ci il saat 14:00-da keçirilməsi nəzərdə tutulan təsərrüfat mallarının satın alınması üzrə açıq tenderin vaxtı 11 may 2021-ci il saat 13:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 29 aprel 2021-ci il saat 13:00-a qədər, tender təklifi və bank təminatını isə 07 may 2021-ci il saat 13:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

Aydın Alik oğlu Kərimova məxsus Bakı şəhərində qeydiyyatda olan Yamaha 700 tipli Hidrosiklin Bilet ID-si 373005, AA seriyalı (26.08.2014-cü il tarixdə verilən, 26.08.2019-cu il tarixə qədər etibarlı olan) Gəmi Bileti itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq daxili turizmin təbliğat kampaniyası üçün kreativ konsepsiyasının hazırlanması xidmətinin satın alınması məqsədilə *açıq tender elan edir*

Açıq tenderdə iddiaçı qismində ixtisaslı işçi heyətinə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https//www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını ("ASAN ödəniş" vasitəsilə) aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər:

**AZN hesabı**
**Emitent**
**Bankın adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Bankın kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Alan: Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**
**VÖEN: 1404365471**
**H/h: AZ53CTRE00000000000008498501**
**Büdcə səviyyəsinin kodu -7**
**Büdcə təsnifatının kodu -142330**

Tenderdə iştirak haqqı 200 manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi ("ASAN ödəniş");*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
- *iddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında dövlət orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının oxşar işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər (kampaniyanın ROİ (investisiyaların qayıtma nəticəsi) nəticələri ilə birlikdə ən azı 5 nümunə təqdim olunmalıdır və Azərbaycanda ən azı 2 il rəqəmsal marketinq servisini təqdim edən şirkət olmalıdır);*
- *peşəkar kadr heyəti və müvafiq işləri icra edəcək hər bir mütəxəssisin tərcümeyi-halı (CV);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *4 ədəd rəqəmsal kampaniya konsepti və kampaniyaların icra planı;*
- *layihə çərçivəsində təşkil olunan müsabiqələrin qalibləri üçün hədiyyələrə dair tövsiyələr;*
- *sosial media kanalları üçün məzmun nümunələri (başlıqların yazılma nümunələri və kreativlərin vizualları daxil olmaqla;*
- *digər sənədlər (tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İş həcmlərinə dair məlumat aşağıdakı kimidir:

- *rəqəmsal kampaniyaların konseptinin yaradılması (4 konseptin yaradılması və həmin 4 konseptdən 2-sinin icrası);*
- *rəqəmsal kampaniyaların icrası;*
- *sosial media (SM) kanalları üçün məzmun təqviminin hazırlanması və həyata keçirilməsi (8 ay).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Mətnlər arasında fərq aşkar olunarsa, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tenderlə əlaqədar istənilən məlumatı almaq üçün aşağıdakı şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs- Mehman Bayramov
Ünvan: Bakı şəhəri, Nizami küçəsi 96E, Landmark I, 3-cü mərtəbə.
Telefon: +994125058704 (əlavə 2304); mobil: +994512296015
Faks: +994124920592.
E-mail: mehman.bayramov@tourism.gov.az

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 25 may 2021-ci il saat 12:00-a, tender təklifini və təklifin bank təminatını isə 03 iyun 2021-ci il saat 18:00-dək Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların tender təkliflərinin açılışı 04 iyun 2021-ci il saat 12:00-da dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır. Elektron satınalmanın hər bir iştirakçısı onların təkliflərinin açılışını və qiymətləndirilməsini elektron Portal vasitəsilə izləyə bilər.

QEYD: tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin əməkdaşları Ümumi şöbənin müdiri Elşən Əsgərova ezizi

**ŞAHMƏRDAN KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov və Milli Məclis Aparatının əməkdaşları Vilayət Əlizadə və İsa Hüseynov Milli Məclisin sabiq əməkdaşı

**ŞAHMƏRDAN KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Siyavuş Novruzov və Səbinə Əliyeva "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri Vüqar Məcidliyə anası

**FƏRİDƏ MƏCİDLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Bank Aktivlərinin İdarə edilməsi Agentliyinin Maliyyə şöbəsinin müdiri Sevinc Ələsgərovaya atası

**ŞAHMƏRDAN RƏSUL OĞLU KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Zahid Abbasov, İlyas Məmmədov, Məzahir Nəbizadə, Əmirxan Babaşov və Niyazi Əzimov keçmiş iş yoldaşları

**ŞAHMƏRDAN KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi

**RƏŞİD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi

**RƏŞİD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Elmira Süleymanova Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəsirəddin Tusi adına Klinikanın kollektivi şüa diaqnostikası üzrə həkim Telman Əzimova qardaşı

**FƏRMAN ƏLİ OĞLU ƏZİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5188
Sifariş 623
Qiyməti 40 qəpik